

## Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildi

*Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib."Unikal" xəbər verir ki, bu haqda qərar TÜRKSOY-un Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul edilib.*

Səh.6


# UNİKAL

№11 (2096) 1 aprel 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## İlham Əliyevdən mühüm mesaj



Səh.9

## Sülh danışıqlarının Avropa raundu....

### Prezident: "Mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. "Unikal" xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi: -Sizi görməyə şadam. Azərbaycana gəldiyiniz üçün təşəkkür edirəm. Bu, bizim gündəliyimizdə duran mühüm məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Əlbəttə ki, ATƏT-in sədri olaraq sizinlə regionda postmünaqişə vəziyyətindən danışacağıq. Eyni zamanda, Polşa və Azərbaycan arasında ikitərəfli gündəlik də çox genişdir. Bilirsiniz ki, bu yaxınlarda Prezident Andjey Duda ilə bizim telefon söhbətimiz də olub. Mənim Prezidentlə Varşavada, Bakıda, Davosda görüşlərimlə...*

Səh.2

## "Süni qiymət artımı yolverilməzdir, bazar açıq olmalıdır"



*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev "Unikal" qəzetinə müsahibə verib. O, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsullarının qiymətinin qalxması və digər məsələlərlə bağlı fikirlərini bölüşüb. - Tahir müəllim, hazırda dünyada əsas müzakirə olunan məsələlərdən biri də ərzaq təhlükəsizliyi ilə bağlıdır.*

Səh.4

## Fazil Məmmədova 2 milyon manatlıq şok...



*"AtaSığorta" ASC 2021-ci ili 2 milyon 265 min manat xalis zərərlə başa vurub. Halbuki, şirkət 2020-ci ili 714 min manat xalis mənfəət ilə bağlamışdı. Şirkətin zərərə keçməsinin əsas səbəbi yığımlarının azalmasıdır. Şirkətin maliyyə hesabatlarından blə məlum olur ki, 2021-ci ildə "AtaSığorta"nın cəmi...*

Səh.8

## Sadiq Sadıqovun kreslosuna təhlükə



*16 noyabr 2016-cı ildə yaradılan Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ətrafında qalmaqal yaşanır. Qalmaqalın səbəbi isə bu qurumun sərəncamındakı binalardakı mənzillərin satışıdır. Həmin mənzillər "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir. Layihənin əsas məqsədi aztəminatlı...*

Səh.6

# "Afaq Gəncəlidən artıq olacaqsınız?" - Prodüserdən aparıcılara



***Prodüser Mədinə Məlik aparıcılar Vüsalə Əlizadə və Zümrüd Bədəlova ilə bağlı qalmaqallı açıqlama verib.***

O, "Tarixin bir günü" proqramında aparıcılara zəng vurduğunu, ancaq onların cavab vermədiyini söyləyib:

"İllərlə tanıdığım aparıcı, 20 ildir şou-biznesdəyəm. Söhbət Vüsalə Əlizadə və Zümrüd Bədəlovadan gedir. Göylə getməyin, yerdə gəzin. Görürsüz, Mədinə zəng edir, illərdi tanıyırsız. Birincisi sizə efir üçün yox, sponsor dostum verilişinizə istəyirdi deyə zəng etdim. Səni 50 dəfə gecə ikidə, üçdə maşınıma mindirib evinə sürən adamam. Afaq Gəncəlidən artıq olacaqsınız? Ona zəng edirəm, "can" deyir. Vüsalə Əlizadə xanımın köməkçisi götürür, vaxtı yoxdur. Zümrüd Bədəlova məni lap öldürdü. Deyirəm, Zyuma. Qayıdır ki, Zyuma? Zümrüd xanım. Sadə olun, bir-birimizin arasında sadə olaq".

# "Öz kefi, eyş-işrət üçün balalarını atır" - Mətanət İsgəndərli

***"Analar var ki, harınlığından, öz həyatı, kefi, eyş-işrət üçün balalarını atır".***

Bu sözləri Əməkdar artist Mətanət İsgəndərli "Bizimləsən" proqramında deyib. Müğənni verilişə gələn və uşaqları olan qadının ünvanına bu sözləri deyib. O, 11 yaşında təcavüzə uğrayan Mədinə adlı qızdan danışan İsgəndərli bunları əlavə edib: "Sonra da yalandan çıxıb deyir ki, balalarımı əlimdən alıblar. Yalandan obraza girən analar gördüm, lənət olsun elələrinə. Allah da, biz də elə ananı lənətləyirik. Pişik-pişikliyi ilə balasını atmır. Bu qız nələrə tab gətirib. Amma uşaqlarını atmayıb. Analıq hissini Allah adama verir. Bədbəxt o adamdır ki, analıq hissi yoxdur. Şeytandır o... ".



Nəvələrindən danışan sənətçi "Bir azdan nəvələrimi qoyacam Quranı öyrənsinlər. Allah tanısınlar" sözlərini söyləyib.

Qeyd edək ki, M.İsgəndərlinin oğlu Kərim və gəlini Canana ayrılıb. Cütlük ötən il rəsmi boşanıb, 3 uşaq anadan alınıb ataya verilib. Apellyasiya məhkəməsində isə uşaqlar anaya qaytarılıb. Canana isə hələ də prosesin uzandığını, uşaqlarının ona verilmədiyini bildirib.

# "Analar balalarının yuvalarını dağıdır" – Nazənin

***"Oğlum Fəxrinin evinə gedəndə deyir ki, mənim yerimi qonaq otağında hazırlayın. Məndən abır-həya edir".***



"Unikal" olay-a istinadən xəbər verir ki, bu sözləri müğənni Nazənin Salayeva "Elgizlə İzlə" proqramında qonaq olarkən deyib. Sənətçi böyük oğlu barədə danışıb, daha sonra tək övladı olan anaların qısqanc olduğunu bildirib: "Söyləyirəm ki, bu səbəbdən sizdə qalmaq istəmirəm. Tərbiyəsindən irəli gəlir. Analar çox vaxt balalarının yuvalarını özləri dağıdır. Bilərəkdən, yaxud bilməyərəkdən. Həm də tək oğul anaları qısqanc olurlar".



# "Kişilərin özündən 20-25 yaş kiçik qızla ailə qurması anormallıqdır" - Nura

***Müğənni Nura Suri özündən yaşca balaca qızlarla ailə quran kişiləri tənqid edib.***

"Unikal" xəbər verir ki, sənətçi eyni zamanda bu cür addım atan qadınları da qınayıb: "Kişilərin özündən 20-25 yaş kiçik, övladları yaşda qızlarla münasibətinə anormal kimi baxıram, o cümlədən də qadınların. Pedofiliyadır bu. Qadınlar da, kişilir də əgər özündən 20-25 yaş kiçik insanlara maraq göstərirlərsə, o adamlardan uzaqlaşmaq lazımdır. Bu, psixoloju anomaliyadır".

# "Maddi və mənəvi Manafın yanında olmuşam" - Vasif Məhərrəmli

***Əməkdar artist Vasif Məhərrəmli müğənni Manaf Ağayevlə aralarında yaşanan inciklikdən bəhs edib.***



Sənətçi "Günün sədası" verilişinə telefonla bağlanaraq həmkarının onunla bağlı dediklərinə cavab verib:

"Manaf Ağayevin hər vəziyyətində çalışmışam yanında olum. Manaf dostumdur. Ürəyi uşaq ürəyi kimidir, baxanda çox pafosla danışır. Bir anlıq bir söz deyib, sonra peşmançılığını çəkir. Hər halıyla mənim dostumdur. Məndən küsə bilər, amma qardaş arasında, ailədə küsülülk ola bilər. Əsas odur ki, barışmağa işıq yeri olsun. Maddi və mənəvi hər zaman Manafın yanında olmuşam".

Verilişdə yer alan Manaf Ağayev "Sən mənim qardaşımsan" sözlərini deyib.

Qeyd edək ki, Manaf Vasifin ünvanına "Güvəndiyim dağlar sənə də qar yağdı" sözünü deyib. Daha sonra onlar sosial şəbəkədə bir-birini izləmədən çıxarıb.

# "Təbii haldayam, hər şey özümünküdür" – Tünzalə

***Xalq artisti Tünzalə Ağayeva xarici görünüşü ilə bağlı açıqlama verib.***



"Unikal" olay-a istinadən xəbər verir ki, bu barədə "Şourum"a danışan sənətçi deyib ki, üzünə hər hansı bir botoks proseduru edilməyib. "Yaşımız var, amma qırışlarım olduğu kimi qalır. Botokslarım yoxdur. Tam təbii haldayam. Hər şey özümünküdür. Görsəm ki, nəyləsə bacarmıram, həkimə gedib deyəcəm ki, gəlmişəm, kömək edin. Hələlik özümü saxlayıram. Həyatdakı ən böyük əskikliyim yaxşı yatmamağımdır. Çünki sağlam və gözəl olmaq üçün yatmaq lazımdır. Düzdür, yuxusuzluq problemim yoxdur. Amma yatmaq üçün gec çatıram. Bu da mənim üçün problemdir", - Tünzalə bildirib.



## Baş nazirdən müharibə veteranları ilə bağlı qərar

***Nazirlər Kabineti müharibə veteranları ilə bağlı yeni qərar verib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Belə ki, "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamənin və müvafiq vəsiqələrin nümunəsinin, eskizinin və təsvirinin təsdiq edilməsi haqqında" qərarda dəyişiklik edilib.

## "Ərazi bütövlüyünün tanınması Ermənistan üçün məqbuldur" - Paşinyan

***"Azərbaycanın verdiyi təkliflərdə bizim üçün qəbuledilməz heç nə yoxdur. Ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması prinsipi Ermənistan üçün məqbuldur".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin bugünkü iclasında deyib.

O, Ermənistanın Azərbaycanla sülh sazişi imzalamağa hazır olduğunu bir daha bəyan edib.

Baş nazir Bakının təklifləri ilə bağlı Ermənistanın mövqeyini bir daha xatırladıb.

*Ağarza Elçinoğlu*

## Azərbaycan XİN-dən İsraildəki terror aktına reaksiya

***"Biz İsraildə günahsız insanların həyatına son qoyan terror hücumlarını qətiyyətlə pisləyirik".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyi tviterdə bildirib.

"Azərbaycan daha əvvəl terrorizmdən əziyyət çəkib və onun bütün forma və təzahürlərini pisləyir.

Dəhşətli hücumların qurbanlarının ailələrinə, İsrail hökumətinə və xalqına başsağlığı veririk", - XİN-dən vurğulanıb.

## "Lavrovla Kulebanın görüşünə hazırlıq görülür" - Çavuşoğlu

***"Rusiya xarici işlər naziri Sergey Lavrovla ukraynalı həmkarı Dmitro Kulebanın görüşünə hazırlıq görülür".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Ahaber"ə müsahibəsində bildirib.

Nazir Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbuldakı görüşündən danışaraq növbəti görüşün Sergey Lavorv və Dmitro Kuleaba arasında keçiriləcəyini gözlədiklərini bildirib. Onun sözlərinə görə, bundan sonra Ukrayna Prezidenti Volodomir Zelenski və Rusiya Prezidenti Vladimir Putin arasında görüşün keçiriləcəyi ehtimal olunur.

Nazir görüşlərin bir-iki həftə ərzində baş tutacağını istisna etməyib. O, hər iki tərəfin bir-birinin ittiham etməsini vurğulayaraq hər iki tərəfdə döyüşən muzdluların olduğunu bildirib.

Çavuşoğlu Vladimir Putinin Türkiyəyə səfərini gözlədiklərini, bunun tarixini rəsmi Moskvanın təyin edəcəyini söyləyib.

# Fazil Məmmədova 2 milyon manatlıq şok...

## Eks-nazirin biznes çöküşü davam edir, onun ən böyük şirkətlərindən biri böyük məbləğdə zərərə uğradı

***"AtaSığorta" ASC 2021-ci ili 2 milyon 265 min manat xalis zərərlə başa vurub. Halbuki, şirkət 2020-ci ili 714 min manat xalis mənfəət ilə bağlamışdı. Şirkətin zərərə keçməsinin əsas səbəbi yığımlarının azalmasıdır.***

Şirkətin maliyyə hesabatlarından blə məlum olur ki, 2021-ci ildə "AtaSığorta"nın cəmi əməliyyat gəlirləri 15 milyon 752 min manat, cəmi əməliyyat xərcləri 18 milyon 17 min manat təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2020-ci ildə Şirkətin cəmi əməliyyat gəlirləri 18 milyon 981 min manat, cəmi əməliyyat xərcləri 18 milyon 94 min manat təşkil etmişdi.

2020-ci ildə "AtaSığorta"nın hesabladığı sığorta haqları 13 milyon 896 min manat ikən, 2021-ci ildə 11 milyon 952 min manat geriləyib. Şirkət 2019-cu ildə 18 milyon 48 min manat sığorta haqları hesablamışdı. "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin hesabladığı sığorta haqlarının azalması 2022-ci ildə də davam edir. Belə ki, şirkət 2022-ci ilin yanvar-fevral dövründə 1 milyon 307 min manat sığorta haqları hesablayıb. Halbuki, "AtaSığorta" 2021-ci ilin eyni dövründə 2 milyon 492 min manat sığorta haqları hesablamışdı.

"AtaSığorta"nın sığorta ödənişləri isə 2020-ci ildə 8 milyon 714 min manat ikən, 2021-ci ildə 8 milyon 532 min manat təşkil edib.

Xatırladaq ki, "AtaSığorta" ASC 2004-cü il iyul ayının 21-də rəsmi dövlət qeydiyyatından keçib. Şirkətin səhmdarı "Ata Holding" MMC-dir. Bu MMC isə sabiq vergilər naziri Fazil Məmmədovun biznes imperiyasına daxildir.

Adıçəkilən holdinqin tərkibində çoxsaylı şirkətlər fəaliyyət göstərir. Onların ən önəmlilərindən biri "Ata bank" idi. Lakin bu bank ləğv edilib. Həmin bankdan sonra MMC-yə daxil olan şirkətlər arasında ən gəlirlisi "AtaSığorta" hesab olunurdu. Lakin belə görünür ki, artıq bu şirkətin də fəaliyyəti kəskin zəifləyib. Və bu cür davam edərsə, onun da "Ata bank"la eyni aqibəti yaşaması istisna olunmur.

Qeyd edək ki, "Azərbaycana müasir holdinq idarəetmə mədəniyyətini gətirməsi və bunu müasir idarəetmə standartlarına müvafiq olaraq təşkil etməsi" ilə öyünən "Ata Holding" 2003-cü ilin sentyabr ayında fəaliyyətə başlayıb. Öncə maliyyə sektorunda fəaliyyət göstərən holdinq Fazil Məmmədovun qeyri-rəsmi patronajlığı altında qısa müddətdə xeyli böyüyüb. Sabiq "vergi şefi" vəzifə səlahiyyətlərindən istifadə eləməklə sənaye, turizm, İT və xidmət sahələrində şirkətlər yaradıb, nəticədə "AtaHolding" iqtisadiyyatın müxtəlif sahələrində investisiya qoyuluşunu, maliyyə vəsaitlərinin, habelə intellektual sərvətlərin idarə olunmasını və korporativ idarəetməni həyata keçirən nəhəng biznes quruluşuna çevrilib.

Əldə etdiyimiz məlumata görə, Fazil Məmmədovun 2018-ci ildə vəzifəsini itirməsinin ardından onun bu holdinqinə daxil olan şirkətlərin də "qara günləri" başlayıb. Bir çox şirkətlər fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb və ləğv edilib. Bu sırada yuxarıda adını çəkdiyimiz "Ata bank"la yanaşı, bəzi başqa MMC-lər də var. Hazırda isə "AtaHolding" -in maliyyə sektorunda "AtaSığorta" ASC, "AtaLizinq" ASC, turizm sektorunda "AtaTurizm" MMC, "AtaTravel" MMC və 5 ulduzlu "Excelsior Hotel Baku" oteli, sənaye sektorunda "Şəmkir Quşçuluq" MMC və İnformasiya Texnologiyaları sahəsində "AtaTexnologiya" MMC şirkətləri fəaliyyət göstərir.

F.Məmmədovun vergilər naziri postunu itirməsindən sonra onun



holdinqi də qazancını böyük ölçüdə itirməyə başlayıb. Belə ki, keçmiş nazir işsiz qaldıqdan cəmi bir il sonra - 2019-cu ilin yekunlarına əsasən "AtaHolding" MMC-nin ümumi mənfəəti 19 milyon manatdan bir qədər çox olub ki, bu da 2018-ci illə müqayisədə xeyli az (27,8% ) az idi.

F.Məmmədovun "biznes imperiyasında" zəifləmənin hələ də davam etdiyi görülməkdədir. Bunu "AtaSığorta"nın 2021-ci ili 2 milyon 265 min manat xalis zərər ilə başa vurması təsdiqləyir.

Onu da deyək ki, bu şirkətin işləri son illərdə ümumiyyətlə düz gətirmir. Məsələn, "AtaSığorta"nın agentləri tərəfindən müştərilərlə bağlanan sığorta müqaviləsində müştərinin nömrəsi deyil, sığorta agentinin nömrəsi qeyd olunduğu və belə hallara kütləvi şəkildə rast gəlindiyi üçün 2019-cu ildə ovaxtkı Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən şirkətin "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası" növünə verilmiş lisenziyası ləğv edilib.

Bu ilin fevralında isə "AtaSığorta" məhkəməyə verilib. Məlum olub ki, ASC ilə bağlı iddia qaldıran "İnşaat Servisez" MMC-dir. Məhkəmə çəkişməsinin səbəbi isə maddi ziyanın ödənilməsi ilə bağlıdır. İddia Bakı Kommersiya Məhkəməsinin hakimi Kənan Hüseynovun icraatındadır.

Hazırda "AtaSığorta"nın qanuni təmsilçisi Məmmədov Orxan Valeh oğludur. O, həm də şirkətin İdarə Heyətinin sədridir. ASC-nin Direktorlar Şurasının sədri isə Ağakərim Məlik-Aslanovdur.

Yeri gəlmişkən, Ağakərim Məlik-Aslanov əvvəllər "AtaBank"ın İdarə Heyətinin sədr müavini vəzifəsində işləyib. Bankın İdarə Heyətinin sədri isə Fazil Məmmədovun bacısı oğlu Dəyanət Quliyev olub...

*Toğrul Əliyev*

# Sülh danışıqlarının Avropa raundu....

## Tofiq Zülfüqarov: "Azərbaycan Avropa meydanında prinsipial mövqeyini yenidən ortaya qoyacaq"

***Xəbər verdiyimiz kimi, aprelin 6-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla danışıqlar aparacaq. Bundan əvvəl Şarl Mişel Azərbaycan və Ermənistan liderləri ilə ötən ilin dekabr ayının 14-də görüşüb. Brüsseldə keçirilən üçtərəfli görüşdə Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı bir sıra qərarlar qəbul edilib.***

Bu barədə dünən Azərbaycan Prezidenti İlham Əliyev öz mövqeyini ifadə edib. O bildirib ki, bu proses indi sürətlə gedir və artıq Avropa İttifaqı tərəfindən elan edilib ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaqdır: "Ümid edirəm ki, bu görüş məhsuldar olacaq. Çünki artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib. Münaqişə artıq öz həllini tapıb. Azərbaycan bunu özü etdi və indi də Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu, çox yaxşı xəbərdir və mən ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcək".

Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə aprelin 6-da Brüsseldə gözlənilən görüşdən danışıb. Martın 31-də hökumətin iclasında deyib ki, o, həmin görüşdə sülh danışıqları prosesinin başlanması ilə bağlı bütün məsələləri müzakirə edib razılaşdırmağa ümid edir. Paşinyan bildirib ki, Ermənistan tərəfi Azərbaycanla sərhəddə, eləcə də Qarabağda vəziyyətin sabitləşdirilməsi ilə bağlı təkliflərə sadiqdir. Onun sözlərinə görə, sözügedən ərazilərdə həm silahlı, həm də psixoloji təxribatlara son qoyulmalıdır.

Bu görüşlə bağlı keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a açıqlamasında bildirib ki, Azərbaycan Avropa meydanında ən əsas mövzusunu yenə də qaldıracaq, prinsipial mövqeyini yenidən ortaya qoyacaq. Onun sözlərinə görə, hazırda Qarabağda gərginliyin artmasının şahidi oluruq: "Bu proseslər ondan irəli gəlir ki, Ermənistan indiyə kimi öz ərazi iddialarından əl çəkmir. Paşinyan açıq şəkildə bəyan edir ki, onlar Qarabağ siyasətini yeni şəraitdə davam etdirmək istəyirlər. Onlar etiraf edirlər ki, Qarabağda Ermənilərin könüllü əsgərləri var. Bu, işğalın davamıdır. Müharibədə məğlub olmalarına baxmayaraq, Ermənistan tərəfi işğalçı siyasətini yenə də davam etdirir. Bu, qəbuledilməzdir. Azərbaycan buna qarşı öz siyasətini davam etdirəcək. Bu, müxtəlif üsullarla ola bilər. O cümlədən, buraya güc tətbiq edilməsi də daxildir".

Bu arada Ankara Türkiyə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etmək istəyir. Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "A Haber" telekanalına müsahibəsində deyib. O bildirib ki, Bakı bu təklifin əleyhinə deyil. "Biz bu görüşü mart ayında Antalyada keçirilən Diplomatik Forum çərçivəsində təşkil etmək istəyirdik. Bu alınmadı. Amma təklif açıqdır və Bakı bu görüşə qarşı deyil", - Çavuşoğlu deyib. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Türkiyəyə yeni səfərinin mümkünlüyü ilə bağlı sualı cavablandıran Çavuşoğlu belə cavab verib: "Bəli, mümkündür".

Türkiyə, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü olarsa, hansı məsələlərin müzakirə olunacağına gəlincə, eks-nazir qeyd edib ki, Azərbaycanla Türkiyə bölgədə sülhə və sabitliyə tərəfdar olduqları ilə bağlı mövqelərini açıq şəkildə ifadə ediblər: "Ermənistan cəmiyyətində sual mövcuddur ki, ölkə gələcəkdə hansı yolla gedəcək. Bu seçimi sülhə yönəltmək üçün bu cür tədbirlər lazımdır. Azərbaycan müxtəlif üsullardan istifadə etməlidir. Güc də tətbiq oluna bilər. Bununla yanaşı bu cür tədbirlərdə iştirak etmək də vacibdir".

Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, bu görüşün mühüm əhəmiyyəti var: "Bundan əvvəl, Brüsselin vasitəçiliyi ilə tərəflər arasında iki görüş keçirilib. Keçirilən bu iki görüşlər Rusiyanın vasitəçiliyi kimi nəticəsiz qalıb. Təbii ki, Moskvadan fərqli olaraq Brüssel sülhün əldə edilməsində maraqlıdır və maksimum çalışır ki, buna nail olsun. Amma, Brüsselin vasitəçiliyi ilə keçirilən görüşlər Ermənistan hakimiyyətinin qeyri-konustruktiv mövqeyinə görə irəlləyiş əldə olunmayıb. Brüssel görüşündə sülh müqaviləsi üzrə danışıqların davamlı aparılması və real nəticələrə uyğun olaraq addımların atılması razılaşdırılacaq. Ermənistanın Qarabağda etnik ermənilərin "statusunu" qabartması mümkündür. Avropa İttifaqı danışıqlar prosesində bu məsələləri müzakirə etməyəcək. Çünki, bu kimi məsələlərin gündəliyə gəlməsi, Rusiyanın maraqlarına cavab verir. Və sülhün əldə olunmasının qarşısını alır. Həmçinin rəsmi Bakı da buna getməyəcək. Brüssel danışıqlarında qarşıda duran məsələ Qarabağ məsələsi deyil. Məqsəd Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasına nail olmaqdır".



Politoloq qeyd edib ki, Azərbaycan tərəfi bu danışıqlara güclü tərəf kimi qatılır: "Belə bir danışıqlar Azərbaycandan fərqli olaraq Ermənistana lazımdır. Çünki, Azərbaycanın bu kimi danışıqlara ciddi ehtiyacı yoxdur, istədiyi məsələləri təzyiq yolu ilə əldə edir. Ermənistan sülh istəyirsə, Azərbaycanın beş maddəlik təkliflərini qəbul etməlidir. Ermənistan tərəfi Brüsseldə əldə olunan razılaşmalara bir müddət əməl etməyə bilər. Amma, Rusiyanın Ukraynada məğlub olması, Avropa İttifaqının regionda mövqeyini gücləndirməsi fonunda Ermənistana müəyyən təzyiqlərə yol aça bilər. Çünki, Avropa İttifaqı Azərbaycanla əlaqələrə ciddi önəm. Həmçinin Rusiyanın regiondan çıxarılması Brüssel üçün strateji xəttdir. Bunun üçün Ermənistanın Azərbaycanla sülh müqaviləsi bağlamasına məcbur edilməsi labüddür. N. Paşinyan ya Moskvanın diqtəsi ilə getməli, ya da Brüsselin şərtlərini qəbul etməlidir. Prezident İlham Əliyev Avropa İttifaqının vasitəçiliyini qəbul edib və prosesin müsbət nəticələnməsi üçün Brüsselin mövqeyinə obyektiv yanaşır. Brüsseldə keçiriləcək görüşdə əldə olunan razılaşmaların həyata keçirilməsi və sülh müqaviləsinin bağlanması əsas danışıqlar predmeti olacaq".

***Z.Məmmədli***



# Ceyhun Bayramov və ATƏT sədri nəyi müzakirə edib...

***Martın 31-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, ATƏT-in fəaliyyətdə olan sədri qismində ölkəmizə rəsmi səfəri çərçivəsində Polşa Respublikasının xarici işlər naziri Zbiqnev Rau ilə görüşüb.***

XİN-dən "Unikal"a verilən məlumata görə, nazirlər arasında təkbətək başlayan görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş formatda davam edib.

Nazirlər, ikitərəfli gündəlikdə duran əsas məsələləri, beynəlxalq platformalarda əməkdaşlığın genişləndirilməsi, xüsusilə də ATƏT ilə əməkdaşlıq, habelə regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycan Polşa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini, və ölkələrimiz arasında strateji tərəfdaşlıq səviyyəsində münasibətlərin inkişaf etməkdə olduğunu vurğulayıb. Bu xüsusda, iki dövlət rəhbəri tərəfindən 2017-ci ildə imzalanan "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair yol xəritəsi haqqında Birgə Bəyannamə"yə istinad edilib. Nazir, cari ilin ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunması ilə əlamətdar olduğunu bildirib və bu münasibətlə təbriklərini çatdırıb.

Nazir Zbiqnev Rau ikitərəfli siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edib və iqtisadi sahədə münasibətlərin daha da inkişaf etdirilməsi üçün imkanların olduğunu bildirib. O, Azərbaycan Respublikası Prezidenti ilə keçirilmiş görüşə məmnunluqla istinad edib.

Nazir Ceyhun Bayramov Polşalı həmkarına bölgədə mövcud olan münaqişə sonrası vəziyyət, üçtərəfli bəyanatların icrası və bu xüsusda, Azərbaycan tərəfindən atılan addımlar, bölgədəki son gərginliyin səbəbi və Ermənistan tərəfindən birgə bəyanatın müddəalarının pozulması, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidən qurma işləri ilə bağlı məlumat verib.

Tərəflər, Azərbaycanın ATƏT ilə əməkdaşlığı, ATƏT-in post-münaqişə mərhələsində normallaşma prosesinə töhfəsi, habelə regional təhlükəsizlik məsələləri, o cümlədən Ukraynadakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

# İlham Əliyev və Putin arasında telefon danışığı oldu



***Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.***

”Unikal” xəbər verir ki, bu barədə Kreml məlumat yayıb. ”Danışıq zamanı üçtərəfli bəyanatın bütün müddəalarının ardıcıl şəkildə həyata keçirilməsinin vacibliyi bir daha vurğulanıb”, - deyə məlumatda qeyd olunub.

# Mehriban Əliyeva: "Azərbaycan xalqı faciələri heç zaman unutmayacaq"



***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.***

“Unikal” xəbər verir ki, paylaşımda deyilir: ”Azərbaycan xalqı günahsız soydaşlarımızın qətlə yetirildiyi faciələri heç zaman unutmayacaq! Biz o dəhşətli hadisələr haqqında həqiqətləri təhrif olunma cəhdlərindən hər zaman qoruyacağıq. 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törədilmiş soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

# Orta məktəbin çökməsi nəticəsində 3 nəfər ölüb, 1 nəfər yaralanıb



***Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyi Babək rayonunun Nehrəm qəsəbəsində məktəb binasının çökməsi ilə əlaqədar məlumat yayıb.***

”Unikal”a daxil olan məlumatda deyilir:

”Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdə 2022-ci il martın 1-dən etibarən yenidənqurma işləri həyata keçirilir. 2022 - ci il 31 mart tarxində Nehrəm qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdə tikinti işləri aparılarkən binanın bir divarınınçökməsi nəticəsində 3 tikinti işçisi həlak olub, bir nəfər isə xəsarət alıb. Aidiyyəti qurumlar tərəfindən hadisənin səbəbləri barədə araşdırma aparılır”.

# İlham Əliyevdən mühüm mesaj

## Prezident: “Mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

“Unikal” xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Sizi görməyə şadam. Azərbaycana gəldiyiniz üçün təşəkkür edirəm. Bu, bizim gündəliyimizdə duran mühüm məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Əlbəttə ki, ATƏT-in sədri olaraq sizinlə regionda postmünaqişə vəziyyətindən danışacağıq. Eyni zamanda, Polşa və Azərbaycan arasında ikitərəfli gündəlik də çox genişdir. Bilirsiniz ki, bu yaxınlarda Prezident Andjey Duda ilə bizim telefon söhbətimiz də olub. Mənim Prezidentlə Varşavada, Bakıda, Davosda görüşlərimlə bağlı çox yaxşı xatirələrim var. Bilirsiniz ki, biz müntəzəm olaraq bir-birimizlə təmasdayıq və ölkələrimiz arasındakı münasibətlər bizim güclü tərəfdaşlığımızı yaxşı nümayiş etdirir.

Həmçinin Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərində bizi daim dəstəklədiyinə görə Polşaya minnətdarıq. Bu proses indi sürətlə gedir və artıq Avropa İttifaqı tərəfindən elan edilmişdir ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaqdır. Ümid edirəm ki, bu görüş məhsuldar olacaq. Çünki artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib.

Münaqişə artıq öz həllini tapıb. Azərbaycan bunu özü etdi və indi də Azərbaycanla Ermənistan ara-



sında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu, çox yaxşı xəbərdir və mən ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcək.

Bizim təqdim etdiyimiz beş prinsip beynəlxalq hüququn normalarını, yaxşı beynəlxalq davranışı əks etdirir. Necə deyərlər, biz burada velosiped ixtira etmirik. Bütün bu prinsiplər istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləridir. Qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, daha sonra sərhədlərin delimitasiyası - hesab edirəm ki, bunun əsasında Qafqaza sülh gələcəkdir. Biz bunu istəyirik. Biz Cənubi Qafqazın üç ölkəsi arasında Cənubi Qafqazda fəal əməkdaşlıq üçün potensialın olduğunu görürük və hesab edirəm ki, bu, nəinki bu ölkələr üçün, daha geniş region üçün önəmli olacaq. Əlbəttə ki, bütün bu məsələləri çox ehtiyatla və vaxtında həll etmək lazımdır. Çox şadam ki, bu və digər mühüm məsələləri sizinlə müzakirə etmək imkanımız var.

Prezident İlham Əliyev 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda vəhşikliklər törətdiklərini, tarixi, dini, mədəni abidələri və digər tikililəri dağıtdıqlarını qeyd etdi. İşğaldan azad olunmuş ərazilərdə hazırda ölkəmizin üzləşdiyi ən böyük problemin ermənilər tərəfindən basdırılan minalar olduğunu dedi.

Dövlətimizin başçısı 1-ci Ermənistan-Azərbaycan müharibəsindən indiyədək 4 min soydaşımızın itkin düşdüyünü ATƏT-in fəaliyyətdə olan sədri kimi Zbiqnev Raunun diqqətinə çatdırdı.

Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Rau Bakı şəhərinin gözəlliyinin onu heyran etdiyini dedi.

Zbiqnev Rau Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşacağına ümidvar olduğunu bildirərək, qeyd etdi ki, nizamlanmaya aparan indiki mərhələ çox nikbin görünür. ATƏT-in fəaliyyətdə olan sədri bu proseslərin Qafqaz regionu, eyni zamanda, Mərkəzi və Şərqi Avropa üçün də çox sevindirici olduğunu dedi və bunun gələcək üçün yeni imkanlar yaratdığını bildirdi.

Qonaq Azərbaycanın hazırda regionun əsas nəqliyyat-logistika mərkəzlərindən birinə çevrildiyini vurğuladı.

Azərbaycanla Polşa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini deyən Zbiqnev Rau iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məqsədilə qarşıdan gələn aylarda hökumətlərarası komissiyanın iclasının keçiriləcəyini vurğuladı.

Zbiqnev Rau Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində Polşa şirkətlərinin də maraqlı olduğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

# Azərbaycanda koronavirusa yoluxanların sayı azaldı



***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 56 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan “Unikal”a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib.

# Ötən gün peyvənd olunanlar

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 14 612 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan “Unikal”a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 994, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 1 483, üç və daha çox doza vaksin vurdurmanların sayı 11 415, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 720 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 13 456 322, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 324 386, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 824 633, üç və daha çox doza vaksin vurduranların sayı 3 078 608, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 228 695 təşkil edir.

# “Erməni silahlı dəstələri Azərbaycan ərazisindən çıxarılmalıdır” - Ərdoğan



***“Azərbaycan üçtərəfli bəyanatın müddəalarına tam əməl edir. Ona görə də Azərbaycan tərəfindən heç bir pozuntu yoxdur”.***

“Unikal” xəbər verir ki, bunu Ərdoğan Özbəkistandan səfərdən qayıdarkən təyyarədə jurnalistlərə deyib.

“Orada Azərbaycana hücum olduğu üçün müdafiə reaksiyası olub. Əsas budur ki, üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq, erməni silahlı ünsürlərinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisindən tamamilə çıxarılması təmin edilsin”, - Türkiyə lideri əlavə edib.

# Mədət Quliyev "Azəriqaz"ın baş direktorunu təltif etdi





***”Azəriqaz” ın baş direktoru təltif olunub.***

”Unikal” xəbər verir ki, Müdafiə sənayesi naziri Mədət Quliyevin əmri ilə ”Azəriqaz” İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev ”Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# XİN-dən Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bəyanat




***"31 mart tarixi, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qanlı qırğının qurbanlarının xatirəsinin anıldığı Azərbaycanlıların Soyqırımı Günüdür".***

"Unikal" xəbər verir ki, bu, Azərbaycan Xarici İşlər Nazirliyinin Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar yaydığı bəyanatda əksini tapıb.

"1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda xüsusi qəddarlıqla kütləvi qırğınlar törədilib və on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib. Bu hadisələrin qurbanlarının xatirəsini anır və gələcəkdə bu kimi faciələrin qarşısının alınması üçün bu yaddaşın qorunub saxlanılmasını vacib hesab edirik.

Qafqazın Fövqəladə Komissarı, etnik erməni olan Stepan Şaumyan etiraf edirdi ki, Azərbaycanlılara qarşı olan qırğınlarda Bakı Sovetinin 6000 və Daşnaksutyun partiyasının 4000 silahlı əsgəri iştirak edib.[1]

Azərbaycanlılara qarşı törədilən soyqırımı Bakı ilə yanaşı, Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qars bölgələrini də əhatə etdi. 1918-ci ilin ilk beş ayı ərzində təkcə Qubada xüsusi vəhşiliklə 16.000-dən artıq insan öldürüldü, 167 kənd məhv edildi. Quba rayonu ərazisində 2007-ci ildə aşkar olunmuş kütləvi məzarlıq ermənilərin törətdiyi qeyri-insani əməllərin əyani sübutunu təşkil edir.

1918-ci ilin mart qırğınları radikal millətçi ermənilərin azərbaycanlılara qarşı irqi ayrı-seçkilik və etnik təmizləmə siyasəti əsasında əvvəlcədən hazırlanmış və qəddarcasına həyata keçirilən siyasəti idi.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün 1918-ci ildə Fövqəladə İstintaq Komissiyası yaratmış, Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Müxtəlif millətlərin, o cümlədən ruslar, yəhudilər, polyaklar, gürcülər və hətta ermənilər olmaqla, həmin dövrün ən yaxşı hüquqşünaslarının təmsil olunduğu Fövqəladə İstintaq Komissiyası sübutlar əsasında dinc əhaliyə qarşı müxtəlif cinayətlərə görə təqsirləndirilən 194 nəfər barəsində cinayət işi açdı və törətdikləri cinayətlərə görə Bakıda 24 və Şamaxıda təxminən 100 nəfər həbs olundu.

Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırıldı, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alındı. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi.

Azərbaycanlıların Soyqırımı Gününün yad edilməsi keçmişdə və müasir mərhələdə azərbaycanlıların qırğın və etnik təmizləmələrə məruz qalması barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayır.

Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüz siyasəti çərçivəsində Ermənistan tərəfindən Azərbaycanlılara qarşı etnik zəmində cinayətlər davam etdirildi. Ermənistanın özündə və Azərbaycanın işğal olunmuş ərazilərində bir milyon azərbaycanlı etnik təmizləmənin qurbanı oldu. Ermənistan, 1992-ci ilin fevralında Xocalı soyqırımı da daxil olmaqla, soyqırımı aktları, çoxsaylı hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törətdi. Ermənistan silahlı qüvvələri 44 günlük müharibə zamanı Azərbaycanın Gəncə, Bərdə, Tərtər və digər şəhərlərinin dinc insanlarını məqsədyönlü şəkildə raket hücumlarının hədəfinə çevirdi. Beləliklə də, Ermənistan bir əsr öncəki Mart qırğınının xatirələrini geri qaytardı.

Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı bu günədək törədilən soyqırımı, bəşəriyyət əleyhinə cinayət, irqi ayrı-seçkilik və etnik təmizləməyə əsaslanan məqsədyönlü siyasəti qəti şəkildə pisləyir və bu qəbildən olan qeyri-insani cinayətlərin qarşısının alınması və gələcəkdə təkrarlanmaması üçün Ermənistanın cəzasızlığına son qoyulmasının vacibliyini vurğulayırıq. Azərbaycan, öz növbəsində sülhü təmin etmək və cəzasızlığa son qoymaq üçün bütün lazımı hüquqi tədbirləri görəcəkdir.

Mart qırğınının günahsız qurbanlarını hüznlə və rəhmətlə anırıq", - bəyanatda qeyd olunub.

# "ASAN xidmət" beynəlxalq sammitdə diqqət mərkəzində

***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agetliyinin sədri Ülvi Mehdiyev VIII Dünya Hökumətlər Sammiti çərçivəsində bir sıra görüşlər keçirib.***

İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Al Yassir ilə keçirilən görüş zamanı "ASAN xidmət" modelini tətbiq etmək niyyətində olan İslam ölkələrinə dəstəklə əlaqədar əməkdaşlıq perspektivləri müzakirə edilib.

İslam İnkişaf Bankı Qrupunun sədri "ASAN xidmət" modelinin, eləcə də Dövlət Agentliyi tərəfindən elektron hökumət və sosial innovasiyalar sahəsində həyata keçirilən layihələrin İslam ölkələrində daha da geniş tanıdılmasının zəruri olduğunu qeyd edib. Bu çərçivədə Dövlət Agentliyi ilə əməkdaşlıqdan məmnun olacaqlarını bildirən Əl Yassir qeyd olunan istiqamətlər üzrə tərəflər



arasında imzalanması planlaşdırılan Anlaşma Memorandumunun əhəmiyyətli olacağını vurğulayıb.

Bundan əlavə Sammit çərçivəsində Dövlət Agentliyinin sədri ilə Dövlət İdarəçiliyi üzrə Afrika Assosiasiyasının Baş Katibi Corc Skot arasında görüş keçirilib. Görüş zamanı qarşı tərəfə "ASAN xidmət" təcrübəsi və Dövlət Agentliyi tərəfindən müvafiq istiqamətlər çərçivəsində həyata keçirilən layihələr barədə geniş məlumat verilib və dövlət xidmətlərinin göstərilməsi sahəsində Azərbaycanın qabaqcıl təcrübəsinin Afrika qitəsi ölkələrində tətbiqinin genişləndirilməsi ilə əlaqədar müzakirələr aparılıb. Tərəflər arasında əməkdaşlığın çərçivəsini müəyyən edəcək Anlaşma Memorandumunun imzalanması ilə əlaqədar ilkin razılıq əldə olunub.

Bundan əlavə Sammit çərçivəsində "Amazon" şirkətinin Qlobal İnnovasiya Siyasəti və Kommunikasiyalar üzrə vitse-prezidenti Paul Misener ilə görüş baş tutub.



# Spiker: "Bu, bütün bəşəriyyətə qarşı cinayətdir"

***Milli Məclisin sədri Sahibə Qafarova 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı rəsmi tviter səhifəsində paylaşım edib.***

"Unikal" xəbər verir ki, paylaşımda deyilir:

"1918-ci il mart soyqırımı yalnız azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə və insanlığa qarşı qanlı cinayətdir. İllər keçsə də, Azərbaycan xalqı bu terror və soyqırımı aktlarını unutmayacaq. Soyqırımı qurbanlarının əziz xatirəsini ehtiramla yad edirik. Allah rəhmət eləsin" .

# Milli Məclisin müəyyən tədbirləri Qarabağda keçiriləcək

***"Milli Məclisin Aqrar siyasət komitəsinin üzvlərinin işğaldan azad olunmuş ərazilərə səfəri olacaq".***

Bunu "Unikal"a açıqlamasında komitə sədri, deputat Tahir Rzayev deyib:

"Yaxın vaxtlarda Milli Məclisin müəyyən tədbirlərinin də azad olunmuş ərazilərdə keçirilməsi nəzərdə tutulur. Milli Məclisin komitələri sistemli şəkildə öz iclaslarını Şuşada keçirə bilərlər. Bu, təbliğat üçün çox vacibdir. Şuşada bir çox mötəbər tədbirlər keçirildi. Parlamentin tədbirlərinin orada keçirilməsi zərurətdir".

***Anar Kəlbiyev***

# Rəşad Nəbiyev vətəndaşları qəbul edəcək



***Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda 2022-ci ilin aprel ayında vətəndaşları qəbulu cədvəlinə əsasən, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Sabirabad, Saatlı və İmişli rayon sakinlərini qəbul edəcək.***

"Unikal" xəbər verir ki, vətəndaşların qəbulu 8 aprel 2022-ci il tarixində saat 10:00-da Sabirabad şəhərində yerləşən Heydər Əliyev Mərkəzində (ünvan: Sabirabad şəhəri, Heydər Əliyev prospekti 95) keçiriləcək.

Nazir adı çəkilən bölgələrdə göstərilən nəqliyyat, telekommunikasiya, o cümlədən internet, televiziya və radio yayımı, eləcə də poçt xidmətləri sahəsində əhalini maraqlandıran məsələlərlə bağlı vətəndaşları dinləyəcək.

Qəbula yazılmaq üçün 7 aprel 2022-ci il tarixinə qədər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Çağrı Mərkəzi (1655), elektron poçtu (mincom@mincom.gov.az) və 012 598 58 58 (daxili 222 və 290) nömrəli telefon vasitəsilə müraciət etmək mümkündür.

Vətəndaş qəbulunda iştirak etmək istəyənlər, həmçinin Sabirabad, Saatlı və İmişli Telekommunikasiya qovşaqlarına (050 833 03 40) müraciət edə bilərlər.

# “Süni qiymət artımı yolverilməzdir, bazar açıq olmalıdır”

## Tahir Rzayev: “Vətəndaşlarımızın ərzağa olan tələbatının ödənilməsi ilə əlaqədar hökumətin təklifləri diqqət mərkəzindədir”



***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev ”Unikal” qəzetinə müsahibə verib. O, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsullarının qiymətinin qalxması və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.***

***- Tahir müəllim, hazırda dünyada əsas müzakirə olunan məsələlərdən biri də ərzaq təhlükəsizliyi ilə bağlıdır. Ölkəmizdə bu istiqamətdə hansı işlər görülür?***

-Bu günlərdə Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən ərzaq təhlükəsizliyinin təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirədə bu məsələlər geniş müzakirə olunub. Bir sıra ərzaq məhsullarının ixrac edilməsinə müəyyən sədlər qoyuldu. Bu onu göstərir ki, Azərbaycan dövləti ərzaq təhlükəsizliyinin təmin olunması üçün qabaqlayıcı tədbirlər həyata keçirməkdədir. Ərzaq təhlükəsizliyi dünya ölkələrini narahat edən əsas məsələlərdən biridir. Müharibələr, iqlim dəyişikliyi və təbii hadisələr dünya ölkələrini ərzaq problemini daha ciddi aradan qaldırmağa vadar edir. Bu istiqamətdə bir çox tədbirlərin həyata keçirilməsi zərurətə çevrilib. Azərbaycan da bu məsələlərdən kənarda qala bilməz. Sözsüz ki, bu problemləri biz də yaşayırıq. Lakin, ölkənin təbii şəraiti, sabitlik, sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər ölkə vətəndaşlarını ərzaqla imtahana çəkməyib. Bu gün müəyyən ehtiyatlarımız var. Amma bununla kifayətlənmək olmaz. Biz bir çox ərzaq məhsullarını (buğda, bitki yağlarını, qarğıdalını və s.) əsasən Rusiyadan və Ukraynadan idxal edirdik. Məlum olduğu kimi, həmin ölkələr müharibə şəraitindədir. Bu ölkələrin özündə ərzağa tələbat artıb. Demək olar ki, idxal məsələləri çətinləşib. Bu, son zamanlar özünü aydın şəkildə göstərir. Un və un məmulatlarının qiymətinin artması, bitki yağlarının qiymətində baş verən dəyişikliklər göstərir ki, mühüm qabaqlayıcı tədbirlər görməliyik. İki milyon tona yaxın buğdanı özümüz istehsal edirik, amma tələbat 3,4 milyon tondan çoxdur. Qalan 1 milyon 400 min ton taxılı kənardan idxal edirik. Ona görə də mütləq ölkədə taxıla olan tələbat ödənilməlidir. Məhsuldarlıq, sahələrin genişləndirilməsi, müasir texnologiyaların tətbiqi hesabına bunu təmin etmək olar. Digər məsələlərdə də qabaqlayıcı tədbirlər görülməlidir. Artıq bu istiqamətdə addımlar atılır. Nazirlər Kabinetinin qərarı var ki, ölkədən xaricə ixrac olunan ərzaq məhsulları dəqiqləşdirilsin, müvafiq orqanlar bu barədə məlumatlandırılsın. Həmçinin, ərzaq məhsullarının kütləvi halda ölkədən çıxarılması məhdudlaşdırılır. Bu onu deməyə əsas verir ki, vətəndaşlarımızın ərzağa olan tələbatının ödənilməsi ilə əlaqədar hökumətin təklifləri diqqət mərkəzindədir.

***-Məlum olduğu kimi, bir sıra məhsulların qiymətində artımlar var. Bununla yanaşı, bəzən bazarda süni qiymət artımları da baş verir. Bunun qarşısının alınması üçün hansı addımlar atılmalıdır?***

-Baş nazir Əli Əsədov keçirdiyi müşavirədə bu məsələləri gündəmə gətirdi. Bazarın tənzimlənməsi, nəzarət, müəyyən inhisarçılığın aradan qaldırılması diqqət mərkəzində olacaq. Əlbəttə, süni qiymət artımı yolverilməz bir haldır. Bazar açıq olmalıdır. Təəssüflər olsun ki, bəzi işbazlar bundan öz məqsədləri üçün istifadə edirlər. Məsələn, benzinin qiyməti bir neçə qəpik artırılır, bir də görürsən, göyərtinin, kartofun, soğanın və s. qiyməti ondan çox artır. Bu, təəccüblüdür. Necə ola bilər? Çünki həmin məhsul istehsal olunub və artıq bazarda satışdadır. Əgər, məhsulun əkini zamanı qiyməti qalxan yanacaqdan istifadə olunsa, onun daşınmasına əlavə xərclər çəkilsə, o zaman qiymətin qalxması zərurətə çevrilə bilərdi. Əgər məhsul istehsal olunubsa, anbarda və ya bazardadırsa, o artan yanacağın qiyməti buna təsir etməli deyil. Görürsən ki, belə hallarda işbazlar bundan öz məqsədləri üçün istifadə edirlər. Bu gün bazarda inhisarçılıq hallarına rast gəlinir. Hansısa sahibkar istəyir məhsulunu ucuz qiymətə bazarda satsın. Bəzən ona təsirlər olur ki, həmin məhsul bazarda biz dediyimiz qiymətə satılmalıdır. Məsələn, bazarda kartof 1 manatdırsa, bəzi sahibkar istəyir ki, məhsulunu 70-80 qəpiyə satıb tez getsin. Bəzi hallarda buna görə bazara daxil ola bilmir. Bu halların aradan qaldırılması ancaq dövlətin vəzifəsi ola bilməz. Burada sahibkarın özü də maraqlı olmalıdır. Bu gün dövlət sahibkara deyə bilmir ki, sən hansı məhsulu istehsal elə və yaxud onu bu qiymətə satmalısan. Artıq sahibkar azaddır. Torpaq özünündür və orada hansı məhsulu istəyirsə onu da əkir. Bu baxımdan, sahibkar öz məhsulunun satılması üçün maraq göstərməli, obyektiv olmalıdır. Dövlət müəyyən məsələlərə müdaxilə edə bilir. Amma elə məsələlər var ki, sahibkara onu diktə etmək mümkün deyil. Bəzən əkin müəyyən qaydada tənzimlənmir. Məsələn, bu il soğanın qiyməti bahadırsa, növbəti ildə hamı soğan əkmək istəyir. Bu zaman bazarda ucuzlaşma gedir. Həmin məhsulun qiyməti çox aşağı enir və sahibkar bundan əziyyət çəkir. Hər bir sahibkar öz məhsulunun bazarı haqqında fikirləşməlidir. Tələb-təklif bir-birini tamamlamalıdır. Bir çox hallarda isə bunun əksini görürük.

***-İşğaldan azad olunan ərazilərimiz minalardan təmizlənir və müəyyən əkin işləri də aparılır. Qarabağdakı rayonlar ölkəmizin ərzaq təhlükəsizliyinə nə kimi töhvə verəcək?***

-Sovet dönəminin statistikasına diqqət yetirsək görərik ki, işğaldan azad olunmuş torpaqlar ölkənin 10 faizdən çox kənd təsərrüfatı məhsullarını verib. Həmin ərazilərin aqrar sahənin inkişafı üçün çox güclü potensialı var. Dağlıq rayonlarda heyvandarlığın inkişafına çox böyük imkanlar var. Kəlbəcər, Laçın, Qubadlı uzun illər heyvandarlıq rayonları kimi formalaşmışdı. Orada təbii şəraitin heyvandarlıq üçün çox böyük əhəmiyyəti var, həm də əlverişlidir. Ağdam və Füzulidə taxıl, pambıq əkilməsi, üzüm yetişdirilməsi üçün əlverişli şərait mövcuddur. Digər işğaldan azad olunmuş rayonlarımızda tütünçülüyün, balıqçılığın, arıçılığın inkişafı üçün böyük potensial var. Həmin torpaqlar minalardan təmizlənir. Biz gördük ki, müharibə bitdikdən sonra 7 min hektardan çox sahədə əkin aparıldı. Bu gün həmin ərazilərdə 20 min hektardan çox torpaq minalardan təmizlənib, yararlı haldadır və əkinə hazırlıq gedir. Həmin torpaqlarda pambıq, üzüm, taxıl əkilə bilər. Biz indi ölkədə taxılçılığı inkişaf etdirməliyik. Çünki mövcud vəziyyət bunu tələb edir. Biz taxıl sahələrinin həcmini artırmaqla, nə isə əldə etməyə nail ola bilmərik. Çünki bütün ölkənin ərazilərində taxıl əksək, digər məhsulları istehsal edə bilmərik. Həm də müəyyən aqrotexniki tələblər var ki, onlar yerinə yetirilməlidir. Növbəli əkin sistemi olmalıdır. Əgər bir sahəyə 3 dəfə taxıl əkirsənsə, gələcəkdə orada taxıl olmur. Tarixən növbəli əkin sistemi öz faydasını verib. Biz əkinçilik mədəniyyətini artırmaqla, müasir texnologiyaların kənd təsərrüfatında tətbiq edilməsi ilə, məhsuldarlığı yüksəltməklə nailiyyətlər qazana bilərik. Ötən il 32 sentiner taxıl götürmüşük. Amma suvarılan torpaqlarda 45-50 sentiner taxıl götürmək mümkündür. Əgər müasir texnologiyanı, qabaqcıl təcrübəni təsərrüfata tətbiq etsək, az sahə ilə daha çox məhsul istehsal edərik. Sənaye, emal müəssisələrində müasir texnologiyalar tətbiq olunur, mütləq kənd təsərrüfatında da bunları tətbiq etməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etdirilməlidir. İşğaldan azad edilmiş ərazilərin potensialı çox böyükdür. Bu ərazilər ölkənin kənd təsərrüfatına çox böyük fayda verəcək, ərzaq təhlükəsizliyinin təmin olunmasında çox başlıca rol oynayacaq.

***-Ölkəmizin taxıl idxal etdiyi əsas ölkələrdən biri də Rusiyadır. Hazırda müharibə ilə əlaqədar olaraq bu ölkə taxılın ixracını xeyli azaldıb. Azərbaycan başqa hansı ölkələrdən taxıl idxal edə bilər və hazırda bu istiqamətdə hansı işlər görülür?***

- Bir çox başqa ölkələr var ki, onlardan taxıl idxal edə bilərik. Dünyanın ən böyük taxıl ixracatçılarından olan Kanada, Niderland kimi ölkələr var. Bu ölkələrdən gətirildikdə məhsulun maya dəyəri çox baha olur. Yollar uzundur, onların gətirilməsi baha olduğu üçün dövlətin büdcəsinə ciddi ziyan olur. Biz daha çox Qazaxıstandan taxıl alırıq. Bu ölkə nisbətən bizə yaxındır. Ukrayna taxıl istehsal edən ölkələrdən biridir. Müharibə dayanarsa, biz yenidən müəyyən müqavilələr əsasında onlardan taxıl ala bilərik. Dövlət bu barədə çox ciddi fikirləşir. Biz öz hesabımıza ölkəmizin ərzaq təhlükəsizliyini təmin etməliyik. Sözsüz ki, dünya ölkələrinin heç biri özünü tam olaraq ərzaqla təmin edə bilmir. Mütləq qarşılıqlı mübadilələr olmalıdır. Elə ölkələr var ki, oradan başqa kənd təsərrüfatı məhsulları da alırıq. Həmin məhsulların yetişdirilməsi bizə o qədər fayda vermir, məcburuq ki, onu alaq. Yaxud, Azərbaycanda yetişdirilən elə məhsullar var ki, digər ölkədə bitmir. Əlbəttə ki, Azərbaycan xalqı heç bir vaxt çörəyə möhtac olmayıb və olmayacaq. Ölkəmizin təbiəti əlverişlidir. Ola bilər ki, qiymətlər müəyyən qədər artsın. Amma başqa ərzaqla bunu balanslaşdırmaq mümkündür.

***-Parlamentin ötən iclaslarından birində Azərbaycanda israfçılıqdan danışdınız. İsrafçılığın qarşısının alınması üçün hansı işlər görülməlidir?***

-Bu fikir müəyyən insanlar tərəfindən yaxşı qarşılandı. Bəziləri də buna lağlağı kimi baxdılar. Amma bu bir həqiqətdir ki, israfçılıq var. Məsələn, evimizə 5 nəfər qonaq gəlirsə, onun əvəzinə 25 nəfərə yemək hazırlayırıq. Yeməyin çoxu isə qalır. Bu məhsul sonra tullanmalı olur. Bəzən evə bir çörək lazımdırsa, 4-ü alınır. Onun biri yeyilir, digər hissəsi isə atılır. Şadlıq sarayında süfrəyə 15-20 adda qida məhsulu düzürük. Onun isə 20 faizindən istifadə olunur. Qalanı hara gedir? Bunu düşünmək lazımdır. Həmin ərzağın qalanı təkrarən süfrəyə qoyulursa, bu daha pisdir. Ola bilər ki, süfrəyə təkrar qoyulan qida qəbul etdiyimiz zaman bizə hansısa mənfi təsiri olmasın. Amma bir neçə gündən sonra müəyyən fəsadlarını göstərəcək. Süfrəyə düzülən məhsulların hamısı yeyilmir. Əgər həmin məhsul istehlak olunmursa, nə üçün süfrəyə qoyub zay edirik? Səhər işə gələndə zibil qutularının yanında sellofanda çörəklər qoyulduğunu görürəm. Biz bu gün bahalaşmadan danışırıqsa, fikirləşməliyik ki, tələbatım olan qədər istifadə edim. Bir vətəndaş kimi bunu deməliyəm. Bir adam şadlıq evində 200-250 manatlıq qida məhsulu yeyə bilərmi? Bu, mümkün deyil. Hansısa çayxanada əyləşirsən və tək çay içmək istəyirsən. Onun yanında ləpə, bir neçə cür şirniyyat verirlər. Deyir bu olmalıdır. Axı bunun hamısını yemək olmur. Qalxanda baxırsan ki, hesab 30-40 manat etdi. Hər birimiz vətəndaş olaraq belə hallara qarşı mübarizə aparmalıyıq. Sahibkar istəyir ki, məhsulu satılsın. Amma biz cibimizi, səhhətimizi qorumalıyıq.Mən o fikirdəyəm ki, ərzaq təhlükəsizliyinin təmin olunması vacibdir. Burada israfçılığın qarşısının alınması vacibdir.

***Anar Kəlbiyev***

# İcra başçılarının həbsində ikinci dalğa...

## Haqlarında vətəndaş şikayətləri səngiməyən, barələrində müxtəlif korrupsiya faktları dolaşan rayon rəhbərləri "nisbi sakitlikdən" rahatlaşmasınlar, çünki hər an...



***Son iki ildə Azərbaycanda korrupsiyaya qarşı mübarizə çərçivəsində xeyli rayonun icra hakimiyyəti başçısı həbs edildi. 2019-cu ilin dekabrın 18-də Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev və müavini Ramiz Tatarovun Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilən xüsusi əməliyyat zamanı saxlanılması ilə başlayan proses sonrakı aylarda davam etdi.***

Bu dalğanın "qurbanları" arasında Yevlax rayonunun sabiq icra başçısı Qoca Səmədov, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı olmuş İsmayıl Vəliyev, Biləsuvar rayonunun icra başçısı olmuş Mahir Quliyev, İmişli Rayon İcra Hakimiyyətinin başçısı olmuş Vilyam Hacıyev, Şəmkir rayon İcra Hakimiyyətinin başçısı olmuş Alimpaşa Məmmədov, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı olmuş Namiq Zeynalov, eləcə də həmin rayonların bəzi vəzifəli şəxsləri vardı. Onlar Cinayət Məcəlləsinin rüşvətxorluq, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə saxtakarlığı, mənimsəmə və israf etmə, təkrar rüşvət alma və s. kimi maddələrlə təqsirləndirilərək həbs edilmişdilər.

Hazırda həbsdəki sabiq icra başçılarından bəzilərinin istintaqı davam edir, bəziləri isə məhkəmə qarşısına çıxarılıb.

Mətbuatın da dəfələrlə vurğuladığı kimi, keçirilən bu anti-korrupsiya əməliyyatları cəmiyyətdə rezonans doğurub. Cəmiyyətdəki müzakirələrdə icra başçılarının həbsi müsbət qarşılanıb və əməliyyatların davam etdirilməsinin zəruri olması barədə fikirlər səsləndirilib. Əməliyyatların peşəkarlıqla keçirildiyi , həbs olunanların cinayət başında yaxalandığı, dəlil və sübutların ortada olduğu qeyd edilib. İctimai rəy hesab edir ki, yerli icra hakimiyyətlərində anti-korrupsiya əməliyyatları hakimiyyətin uzun illər ərzində bu sahədə atdığı addımların ən doğrusudur.

Bir müddətdir biz oxşar əməliyyatlara, həbslərə şahidlik etmirik. Odur ki, bir çoxları korrupsiyaya, rüşvətə bulaşmış icra başçılarının həbs dalğasının bitdiyini düşünür. Bəziləri isə hesab edir ki, belə düşünmək üçün çox tezdir. Onların öz fikirlərini əsaslandırmaq üçün maraqlı arqumentləri də var.

Həmin arqument bir müddət əvvəl bir çox ekspertlər tərəfindən də dilə gətirilirdi. Qeyd olunurdu ki, korrupsiyaya bulaşmış məmurlar sərt şəkildə cəzalandırılmayacağı təqdirdə bu sahədə hər hansı nailiyyət əldə etmək mümkün olmayacaq. "Bu icra başçıları eyni gündə həbs edilməyib. Əgər ilk əməliyyat 2019-cu ilin dekabrında keçirilmişdisə, sonrakı əməliyyat təxminən 1 ay sonra baş tutdu. Məlum oldu ki, Nizaməddin Quliyevdən sonra həbs edilən İsmayıl Vəliyev baş verənlərdən nəticə çıxarmayıb. Eyni sözləri Mahir Quliyevlə Vilyam Hacıyev barəsində də söyləmək olar. Əgər özlərindən əvvəl həbs edilən həmkarlarının taleyindən nəticə çıxarmayıblarsa, kim zəmanət verə bilər ki, digər icra başçıları da bundan nəticə çıxaracaq. Ona görə də əməliyyatların davam etdirilməsi lazımdır", - deyən ekspertlər prosesin elə həmin istiqamətdə inkişaf edəcəyini proqnozlaşdırırlar.

Belə düşünən ekspertlər həm də o qənaətdədirlər ki, korrupsiyaya qarşı mübarizə dövlətin ictimai-sosial və mənəvi-siyasi dayaqlarının möhkəmləndirilməsi baxımından böyük önəm daşıyır. İnsan faktoru ilə əlaqədar olan rüşvətxorluq, korrupsiya kimi mənfi hallar bütün cəmiyyətlərdə hökm sürür. Burada vacib strateji nüans bu problemə qarşı mübarizədə siyasi iradənin sərgilənməsidir. Azərbaycanda korrupsiyaya qarşı mübarizə sistemli islahatlar strategiyasının tərkib hissəsidir və davamlı xarakter daşıyır. Təsadüfi deyil ki, bu proses ictimai rəydə də öz müsbət qiymətini alıb, yəni korrupsiya ilə mübarizə istiqamətində atılan addımlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Dövlətin bu strateji kursuna ictimai dəstəyin göstərilməsi dövlət-vətəndaş birliyinin təmin olunması təqdirəlayiqdir, ən əsası isə həmin prosesin davamlı olmasını stimullaşdırır. Özü də elə bir şəraitdə ki, bu qədər məmur həbslərinə baxmayaraq hələ də başda bəzi şəhər və rayonların icra başçıları olmaqla müxtəlif səviyyəli məmurlar barədə yeyinti, rüşvət iddiaları səngimir, vətəndaş giley-güzarları getdikcə artır, müxtəlif səpkili qanunsuzluqlar (məsələn, dövlət satınalmaları ilə bağlı!) ağır ittihamlar davam edir. Deməli, antikorrupsiya əməliyyatlarının davam etdirilməsi də qaçılmazdır.

Uzun sözün qısası, haqlarında şikayətlərin səngimədiyi, müxtəlif korrupsiya faktlarının dolaşdığı rayon rəhbərləri, iri məmurlarla bağlı həbs xəbərlərinin səngiməsindən, necə deyərlər, yaranmış "nisbi sakitlikdən" rahatlaşmasınlar, çünki xüsusi əməliyyatçılar hər an onların da kabinetlərinə daxil ola, belələrini elə kabinetlərindəcə qandallayaraq ədalət mühakiməsinə təhvil verə bilərlər.

***Toğrul Əliyev***




# Nazir 19 federasiyanın fəaliyyətini dayandırdı

***Gənclər və İdman Nazirliyinin növbəti Kollegiya iclası keçirilib.***

Nazirliyin Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, iclasın gündəliyinə əsasən, mart ayı ərzində keçirilmiş bir sıra tədbirlərin hesabatı və müvafiq qərarlar qəbul edilib.

İclasda həmçinin ölkə ərazisində yayılan idman növlərinin və fənlərinin tanınması, ictimai birliklərə respublika idman federasiyası statusunun verilməsi haqqında xüsusi komissiyanın arayışı müzakirə edilib.

Kollegiyanın qərarına əsasən, "Azərbaycan Üzgüçülük Federasiyası" İB, "Azərbaycan Velosiped İdmanı Federasiyası" İB, "Azərbaycan Respublikasının Atçılıq Federasiyası" İB, "Azərbaycan Respublikası Həndbol Federasiyası" İB, "Azərbaycan Boks Federasiyası" İB, "Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası" İB akkreditasiyaları təsdiqlənib.

Bundan başqa, "WKC növləri üzrə Azərbaycan Karate Federasiyası" İB, "Şito-Ryu Karate-Do Federasiyası" İB, "Azərbaycan Coriyo Kunq-Fu Federasiyası" İB, "Azərbaycan Döyüş Federasiyaları Assosiasiyası" İB, "Azərbaycan Dağçılıq və Ekstremal İdman Növləri Federasiyaları Assosiasiyası" İB, "Azərbaycan Skayraninq Federasiyası" İB, "Azərbaycan Boulinq İdman Federasiyası" İB, "Azərbaycan Respublikası Əməyi və Vətəni Müdafiəyə Hazıram Kompleksi və Çoxnövçülüyü üzrə Federasiyası" İB, "Azərbaycan Aykido Federasiyası" İB, "Azərbaycan Dama Federasiyası" İB, "Alpinizm Federasiyası" İB, "Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası" İB, "Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyası" İB və "Budo Döyüş Növləri Federasiyası" İB-nin federasiya statusları dayandırılıb.

Xatırladaq ki, bir-neçə aydır nazirliyin nəzdində fəaliyyət göstərən xüsusi komissiyanın təqdimatına əsasən, Kollegiya qərarı ilə bu günədək statusu təsdiqlənmiş federasiyaların sayı 17-yə çatıb. Ümumilikdə, 19 federasiyanın isə statusu dayandırılıb. Federasiyaların statusuna baxılması prosesi davam edir.

# Yeni şəhərlərarası avtobus marşrutları müsabiqəyə çıxarılır

***Dövlət Avtomobil Nəqliyyatı Xidməti yeni avtobus marşrutları ilə bağlı müsabiqə elan edir. Şəhərlərarası sərnişindaşıma xidmətinin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər çərçivəsində Bakı-Horadiz (Füzuli)-Bakı, Bakı-Sabirabad-Bakı şəhərlərarası müntəzəm avtobus marşrutları müsabiqəyə çıxarılır.***



Nazirlikdən "Unikal"a verilən məlumata görə, müsabiqə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"na uyğun təşkil edilir.

Müsabiqə şərtlərinə əsasən, Bakı-Horadiz (Füzuli)-Bakı istiqaməti üzrə daşıyıcıların ən azı 3, Bakı-Sabirabad-Bakı istiqaməti üzrə 2 orta və iri tutumlu avtobusu olmalıdır.

İddiaçılar müsabiqədə iştirak etmək üçün tələb olunan sənədləri 29 aprel 2022-ci il saat 17:00-dək, müsabiqə təklifləri toplusunu isə 13 may 2022-ci il saat 17:00-dək Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə təqdim etməlidirlər.

İddiaçıların təkliflər paketlərini 26 may 2022-ci ildə müsabiqə keçirilən zaman komissiya üzvləri açacaqlar. İddiaçılar və onların müvafiq qaydada rəsmiləşdirilmiş sənədlə müvəkkil etdikləri səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

Qeyd edək ki, şəhərlərarası marşrut xətləri qanunvericiliyin tələblərinə uyğun olaraq, mərhələli qaydada müsabiqəyə təqdim ediləcək. Məqsəd sərnişindaşıma sahəsində göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılmasıdır.

# "Vətəndaşların müraciətləri" üzrə təlim keçirilib

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli istismar idarələri ilə "Vətəndaşların müraciətləri" üzrə təlim keçirilib.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, 31 mart 2022-ci il tarixində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli istismar idarələri ilə "Vətəndaşların müraciətləri" üzrə təlim keçirilib.

Təlimi Hüquq və İnsan Resursları Məsələləri şöbəsinin müdiri Ülviyyə Məmmədova apardı. Təlimdə Vətəndaşların müraciətlərinə dair qanunvericiliyi təşkil edən normativ hüquqi aktlardan ən mühüm olanı "Vətəndaş müraciəti haqqında" Azərbaycan Respublikası Qanunun tələbləri iştirakçılara izah edilməklə yanaşı, bu tələblərə əməl edilməsinin vacibliyi vurğulandı. Tədbir maraqla qarşılandı və işçilərin bu Qanunun icrası ilə əlaqədar sualları cavablandırıldı.

## Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildi

***Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib.***

"Unikal" xəbər verir ki, bu haqda qərar TÜRKSOY-un Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul edilib.

## Vüqar Qurbanov bu xəstəxanaya direktor təyin etdi

***Şamaxı Rayon Mərkəzi Xəstəxanasına yeni direktor təyin olunub.***

"Unikal" xəbər verir ki, təyinatla bağlı Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Vüqar Qurbanov əmr imzalayıb. Əmrə əsasən, Hüseyn Emin Ramiz oğlu xəstəxanaya direktor təyin edilib.

## ATƏT sədri Ermənistana xəbərdarlıq edəcək

***"ATƏT Azərbaycan və Ermənistan arasında sülh prosesinə və dialoqa töhfə verməyə hazırdır".***

"Unikal"ın xəbərinə görə, bunu Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Rau Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirilən mətbuat konfransında deyib.

"Cənubi Qafqazda sülhün bərpa olunması ilə bağlı Ermənistanı ehtiyatlı davranmağa çağıracağam. Biz itkinlərin taleyinin həll edilməsi, demarkasiya prosesinə də töhfə verməyə hazırıq. Bizim əsas məqsədimiz uzunmüddətli sülhü təmin etməkdir", - o vurğulayıb.

## 4 minə yaxın azərbaycanlı Ukraynanı tərk edib

***4000-ə yaxın vətəndaşımız Polşa sərhədini keçərək Ukraynanı tərk edib.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT sədri, Polşanın xarici işlər naziri Rau Zbignievlə mətbuat konfransında deyib.

"Polşa tərəfi bu məsələdə bizə kömək etdi, sərhədi keçməklə bağlı qaydaları dəyişdi, sadələşdirdi. Bu dəstəyə görə həmkarıma təşəkkür edirəm", - nazir deyib.

## "Azəriqaz"da media və QHT nümayəndələri ilə görüş olacaq

***"Azəriqaz" İB-nin inzibati binasında növbəti "Açıq qapı" aksiyası 1 aprel saat 11:00-da başlayacaq.***

"Unikal" xəbər verir ki, aksiya "Facebook" sosial şəbəkəsi üzərindən canlı yayımlanacaq. Vətəndaşların sualları da canlı yayım vasitəsilə cavablandırılacaq. Hər bir media qurumu, QHT nümayəndəsi və sosial şəbəkə fəalları (blogger) bu tədbirə dəvətlidir.

## Deputat MİDA-nın məzilləri 5 saniyəyə satmasından danışdı

***"Sosial evlər ehtiyacı olan təbəqə üçün nəzərdə tutulmalıdır. Burada əyrintilər gözlənilməndir. Çünki, bəzi şəxslər biznes məqsədlərini həyata keçirirlər".***

Bunu "Unikal"a açıqlamasında deputat Fazil Mustafa deyib.

Deputat bildirib ki, güzəştli mənzillərin satılması prosesinin belə sürətli olması hamı üçün əlçatan deyil:

"Bir sıra insanın ehtiyacı var, amma bu məsələdə hər hansı bir şəkildə çeviklik göstərə bilmirsə, demək ev almaqdan məhrum olacaq. Bu məsələ növbəlilik prinsipi əsasında, insanların ehtiyacı dəqiq araşdırılmaqla həllini tapmalıdır. Əks halda bu cür narazılıq həmişə qalacaq. Demək, kimsə bu prosesi bir neçə saniyəyə edə bilmirsə, kənarda qalır. Burada şübhəli məqamın qalması pis bir haldır. Şikayət varsa, demək burada məsələ tam arzuolunan səviyyədə həllini tapmayıb".

Qeyd edək ki, Mənzil İnşaatı Dövlət Agentliyinin ötən gün həyata keçirdiyi güzəştli mənzillərin növbəti onlayn satışı sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. 500 evin bir neçə saniyəyə satılması qeyri-real adlandırılıb.

***Anar Kəlbiyev***

# Sadiq Sadıqovun kreslosuna təhlükə

## 4-5 saniyəyə 442 mənzili satan MİDA ittiham hədəfinə çevrilib – "Ən uğursuz layihə"..?



***16 noyabr 2016-cı ildə yaradılan Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ətrafında qalmaqal yaşanır. Qalmaqalın səbəbi isə bu qurumun sərəncamındakı binalardakı mənzillərin satışıdır. Həmin mənzillər "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir. Layihənin əsas məqsədi aztəminatlı və gənc ailələrin güzəştli şərtlərlə mənzil əldə etmələri üçün şərait yaratmaqdır. Ancaq...***

Məsələ burasındadır ki, vətəndaşlar haqqında danışılan bu mənzillərə iki yolla - ipoteka kreditindən istifadə etməklə və öz vəsaitləri hesabına ödəniş üsulu ilə sahib ola bilərlər. Müsabiqənin keçiriləcəyi tarix 1 ay öncə MİDA-nın rəsmi saytında yerləşdirilir. Daha sonra təyin olunmuş tarixdə onlayn yarış formatında müsabiqə təşkil olunur və mənzillər satışa çıxarılır.Elə bütün problemlər də məhz bundan sonra başlayır. Müsabiqənin formatına əsasən, yarışda iştirak edən vətəndaşlardan daha cəld seçim etmək tələb olunur.

Bu müsabiqədə eyni anda illərlə arzuladığı mənzilə sahib olmaq istəyən minlərlə vətəndaş iştirak edir. Lakin göz açıb qapayanadək bitən yarışmada bir çox vətəndaş bu arzusuna çata bilmir. Ona görə də müsabiqənin formatından narazı olanların sayı hər ötən gün bir qədər də artır. İştirakçıların sözlərinə görə, satışa çıxarılan mənzillərin böyük əksəriyyəti 5-10 saniyə ərzində satılır. Elə bu həftə olduğu kimi!

Nəticədə isə həm vətəndaşların bu müsabiqəyə inamı azalır, həm də MİDA ətrafında korrupsiya şübhələri artmağa başlayır.

Müsabiqənin keçirilmə qaydasına görə, mənzil seçimi edən şəxs müvafiq xanaları doldurmalı, müxtəlif seçimlər etməli və sonda "CAPTCHA" (simvollardan ibarət avtomatlaşdırılmış kod) kodunu yazmalıdır. Bu qədər prosesin tamamlanması üçün ən yaxşı halda 15-20 saniyə vaxt lazımdır.

Ancaq necə olursa MİDA-nın təşkil etdiyi müsabiqədə mənzillər 5-10 saniyə ərzində tamamən tükənir.

MİDA-nın güzəştli mənzillərlə bağlı Yasamal rayonundakı yaşayış kompleksi üzrə keçirilən növbəti yarışda iştirakçıların əksəriyyəti bir neçə saniyə ərzində evlərin yoxa çıxmasından şikayət edirlər. Onlar 500-ə yaxın mənzilin müəmmalı şəkildə 4-5 saniyədə satıldığını deyirlər.

Bu da azmış kimi, MİDA-nın sonradan qaliblərin adını ictimaiyyətə açıqlamaması, yarışmanın tv və ya internet üzərindən canlı yayımlanmaması, milyonlarla vəsait hesabına hazırlanan MİDA-nın rəsmi saytında müsabiqə keçirilən vaxt donma və geçikmələrin baş verməsi isə şübhəli məqamlarına sadəcə bir hissəsidir. Cəmiyyətdə agentliyin əvvəlcədən bu mənzilləri müxtəlif şəxslərə satması və bəzi işbazların qanunsuz yollarla satınalmalara müdaxilə etməsi yönündə dedi-qodular yaranır. "Azpolitka" saytı yazır ki, bütün bu iddialarla bağlı MİDA-ya sorğu ünvanlasa da, qurumdan cavab ala bilməyiblər.

Elə digər media quruluşları da adıçəkilən agentliyin mənzil satışları ilə bağlı ictimaiyyətdə dolaşan şübhələrə, suallara münasibət öyrənməkdə acizdirlər. MİDA cəmiyyətin narazılıqlarını seyr etməklə kifayətlənir və susur. Görünür, həmin qurumda oturanlar susmağın razılıq əlaməti olması barədə məşhur aforizmdən xəbərsizdirlər. Ya da xəbərdardırlar, ancaq bunların onlara heç bir isti-soyuğu yoxdur.

Hər kəsin haqlı olaraq soruşduğu kimi: mənzillərin satışının onlayn şəkildə keçirilməsinin məqsədi şəffaflığı təmin etməmək, ədalət prinsipinin pozulmasına yol verməmək, obyektivliklə bağlı şübhələrə yol açmamaq deyildimi? Elə isə necə olur ki, yenə də ortaya bu qədər haqlı narazılıq çıxır, MİDA-ya etimadsızlıq fikirləri səslənir? Özü də nəzərə alsaq ki, əmlak alqı-satqısı saytları MİDA-dan aldığı mənzilləri satışa çıxaranların, kirayə vermək istəyənlərin elanları ilə doludur, onda kimi qınayasan? Güzəştli mənzilləri ehtiyacı olmayanların başqa, fərqli məqsədlərlə, qazanc niyyətilə əldə etdiyini və agentliyin də buna "yaşıl işıq" yandırdığını düşünənlərə necə haqq qazandırmayasan?

Artıq kimsədə şübhə doğurmur ki, böyük ümidlərlə yaradılan MİDA hökumətin son illərdəki ən uğursuz layihəsinə dönməkdədir. Bu fikri dilə gətirən yalnız sıravi insanlar deyil, həm də ekspertlər, mütəxəssislərdir.

Qurumun İdarə Heyətinin sədri Sadiq Sadıqov və komandasının öz işinin öhdəsindən layiqincə gələ bilmədiyini düşünənlərin arealı genişləndikcə MİDA-ya etimad da azalır. Elə isə agentliyin rəhbərliyində dəyişim zamanı gəlib çatmayıbmı? Əks halda qarşıda güzəştli mənzillərin satışı ilə bağlı yeni qalmaqalların yaşanmayacağına təminat vermək mümkündürmü?!

***Sənan Mirzə***

# Büdcəni talayanlara Qoca Səmədov dərsi...

## Həftənin məsləhəti: korrupsioner məmurlar Yevlaxın sabiq icra başçısının başına gələnlərdən nəyi öyrənməlidirlər?

*Məlum olduğu kimi, Yevlax Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov səhhəti ilə əlaqədar olaraq ötən ilin sentyabrında həbsdən azad edildi. Həmin vaxt bildirilirdi ki, onun səhhəti həbsdə kəskin pisləşib və bundan sonra Şəki Şəhər Mərkəzi Xəstəxanasına köçürülüb. Oradan isə deyilib ki, Səmədov təcili ürək əməliyyatı keçirməlidir. Buna görə də sabiq icra başçısı Bakıda Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib, anjioqrafiya olunub və diaqnoz qoyulub və aydınlaşıb ki, ürəyindən əməliyyat edilməlidir.*

Nəticədə məhkəmə onun barəsində başqa yerə getməmək qərarı çıxarıb və həbsdən azad edib.Lakin maraqlıdır ki, Səmədov iki ay sonra yenidən həbs olunub. Belə ki, sentyabrın sonunda sabiq icra başçısının cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Ona Şəki Ağır Cinayətlər Məhkəməsində hökm oxunub.Məhkəmənin hökmü ilə Q.Səmədov 7 il 3 ay azadlıqdan məhrum edilib və məhkəmə zalında həbs olunub.

Bu ilin yanvarında isə Yevlaxın sabiq icra başçısı ilə bağlı növbəti məhkəmə qərarı açıqlanıb. Belə ki, o, Şəki Ağır Cinayətlər Məhkəməsinin çıxardığı hökmdən apellyasiya şikayəti verib. Şəki Apellyasiya Məhkəməsində keçirilən prosesdə qərar qəbul edilib. Qərara əsasən, sabiq icra başçısının səhhəti nəzərə alınaraq həbs müddəti 6 ilə endirilib.

Həmin qərardan 15-20 gün öncə isə Səmədovun səhhəti yenidən pisləşib. O, ikinci dəfə xəstəxanaya yerləşdirilib.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumata görə, 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədovun bu müddət ərzində vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edilib. Bundan sonra ona vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə əməlləri üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham verilib.



Məhkəmədə isə Səmədov ona irəli sürülən bütün ittihamları qəbul, cinayət işində keçən rüşvət epizodlarını etiraf edib. Məsələn, xidməti otağında MMC-lərdən birinin direktorundan 100 000 manat məbləğində rüşvət götürdüyünü, qarabağ əlillərinə, şəhid ailələrinə və xəstə adamlara yardım məqsədilə yaradılmış fonda toplanan vəsaitləri - 262 633 manatı, eləcə də, işlədiyi müddət ərzində Yevlax rayonuna dövlət büdcəsindən ayrılan 20 milyon manatı təyinatı üzrə xərcləməyərək zamanla həmin vəsaitin bir hissəsini nağdlaşdıraraq mənimsədiyini boynuna alıb. Lakin nə etirafları, nə də səhhəti sabiq icra başçısını ağır cəza almaqdan qurtarmadı. Bir yandan o, uzun müddətli həbsdə qalmalı olacaq, o biri yandan isə sərvətini itirəcək. Daha doğrusu, artıq itirib. Belə ki, Q.Səmədovun hər birinin 377 min və 220 min manat dəyəri olan iki mənzili, Yevlax şəhərində 63 min 700 manat və 57 min 400 manatlıq iki obyekti, Yevlaxın Qoyunbinəsi kəndində ümumi dəyəri 61 min 800 manatlıq beş müxtəlif torpaq sahəsi, Havarlı kəndində 18 min manatlıq torpaq sahəsi, Goranboy rayonunun Aşağı Ağcakənd kəndində cəmi 50 min 950 manat qiyməti olan üç ayrı torpaq sahəsi, elə həmin kənddə 0.37 hektar ərazi və orada tikilmiş iki fərdi yaşayış evi (dəyəri 321 min manat), Yevlax şəhərinin Aran qəsəbəsində 200 min manatlıq "Su səsi" restoranı, Yevlaxın Salahlı kəndində 2 min 159 kvadratmetrlik, 228 min manat dəyərində obyekt, tikintisi yarımçıq qalmış, 251 min manatlıq ikimərtəbəli uşaq bağçası müsadirə olunub.

Bəlkə də bu gün hansısa korrupsioner məmur belə düşünür: nə vaxtsa qəfildən qandallansam belə, bir yolunu tapıb, məsələn, günahlarımı səmimi etiraf edib, ardınca da özümü xəstəliyə vurub, beləcə, cəzamı yüngülləşdirə və tez bir zamanda da azadlığa çıxaram, ondan sonra da vəzifədə olarkən dövlətdən və xalqdan çırpışdırdığım milyonları oturub ömrümün sonunadək xımır-xımır yeyərəm...

Əgər bu cür düşünən hansısa korrupsioner varsa, bizdən məsləhət - Qoca Səmədovun yaşadıqları barədə yazdıqlarımızı diqqətlə oxusunlar və qulaqlarında sırğa eləsinlər. Ölkə rəhbərliyinin iradəsinə və qanunvericiliyin ziddinə gedərək yol verilən özbaşınalıqlara, yeyintilərə görə qandallananlar bunun cəzasını hər şeyə rəğmən çəkməyə məcburdurlar. Bundan onları nə istintaqda və məhkəmədəki səmimi etirafları, nə səhhətindəki problemlər xilas etmək iqtidarında deyil.

*Toğrul Əliyev*

# Bağlanan modul tipli xəstəxanalar sökülləcək? - Açıqlama

*Azərbaycanda gündəlik koronavirus (COVID-19) infeksiyasına yoluxanların sayında ciddi azalma müşahidə edilir. Son məlumata görə, ölkədə 62 nəfər COVID-ə yoluxub.*

Yoluxanların sayında kəskin azalma müşahidə olunduğu üçün bütün növ resursların optimallaşdırılması və səmərəli tətbiqi məqsədilə bəzi pandemiya müəssisələrinin, o cümlədən modul tipli xəstəxanaların fəaliyyəti dayandırılıb. Belə ki, hazırda 46 pandemiya tibb müəssisəsindən 7- i fəaliyyətini davam etdirir ki, bunların da bir çoxu modul tipli xəstəxanalardır.

Modul tipli xəstəxanalar koronavirusla mübarizə tədbirlri çərçivəsində səhiyyənin yükünü azaltmaq üçün istifadəyə verilmişdi. Yoluxma sayı azaldığı üçün bu müəssisələrdə fəaliyyətini dayandırır. Bəs bundan sonra həmin xəstəxanaların aqibəti necə olacaq? Onlar sökülələcək, yoxsa saxlanılacaq?




Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mətbuat xidmətinin rəhbəri Zamirə Ədilova AzVision.az -ın sorğusuna cavab olaraq bildirib ki, modul tipli xəstəxanalar zərurət yarandığı halda yenidən tibbi xidmətin göstərilməsi üçün fəaliyyət göstərəcək: "Modul tipli xəstəxanalar forsmajor hallar üçün nəzərdə tutulan tədbirlər çərçivəsində yaradılan müəssisələrdir. Pandemiya dövründə səhiyyənin yükünü aradan qaldırmaq üçün alternativ xəstəxanalar və mübarizə tədbirlərinin cəlb olunması üçün tibbi personal müəyyənləşmişdi. Hazırda bu müəssisələr boşdur. Zərurət yarandıqda yenidən istifadə olunacaq. Onlar sökülməyəcək, yığılmayacaq. Orada işləyənlər isə TƏBİB-in tabeliyindəki tibbi müəssisələrdən cəlb olunmuş tibbi heyət idi. Bundan sonra onlar ezam oldunduqları tibb müəssisələrində fəaliyyətlərini davam etdirəcəklər".



# Ərdoğan: "Putinlə Zelenskini görüşdürməyə qərarlıyam"

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və Ukrayna liderləri Vladimir Putin və Volodimir Zelenski ilə bu həftə danışıqlar aparmağı planlaşdırdığını, onların görüşünün təşkili mövzusunu gündəmə gətirmək niyyətində olduğunu bildirib.*

Ərdoğan bunu martın 31-də Özbəkistandan qayıdarkən təyyarədə jurnalistlərə deyib.

"Mən Özbəkistandan qayıdan kimi həm cənab Putinlə, həm də cənab Zelenski ilə danışıqlar aparmağa qərarlıyam. Bu danışıqlarda biz həm özümüz, həm də xalqım adından onlara təşəkkür edib deyəcəyik: "Məqsədimiz ən qısa zamanda bir araya gəlməkdir". Bu kontekstdə dövlət başçıları səviyyəsində görüşə ev sahibliyi etməyə hazırıq. Bu arada, müvəqqəti atəşkəsin təmin edilməsi çox vacibdir".

# Vüqar Səfərliyə qarşı daha bir məhkəmə iddiası qaldırılıb

*Ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) həbsdə olan sabiq icraçı direktoru Vüqar Səfərliyə qarşı daha bir məhkəmə iddiası qaldırılıb.*

Vətəndaş Bayram Qaraşov mülki iddia ilə Xətai Rayon Məhkəməsinə müraciət edib. O bildirib ki, Səbail rayonu ərazisində inşa edilən jurnalistlərin binasında 2018-2020-ci illərdə fəhlə kimi çalışıb. Lakin B.Qaraşov çalışdığı, V.Səfərliyə məxsus şirkətdən rəsmi qaydada əməkhaqqı almayıb.

V.Səfərlinin həbsindən sonra məlum olub ki, B.Qaraşova işlədiyi şirkətdən rəsmi qaydada əməkhaqqı verilib.

"2018-2020-ci illərdə məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlərim 20 min manata yaxın olub. Bu gəlirdən vergi ödədiyimdən isə xəbərim olmayıb", - iddiada göstərilib. Mülki iddia hazırda hakim Şəhriyar Əliyevin icraatına verilib. Lakin işin vaxtı hələlik məlum deyil. B.Qaraşov məhkəmədən xahiş edir ki, onun mülki iddiası təmin olunsun.

Qeyd edək ki, V.Səfərli 2021-ci ilin yanvarında həbs edilib.

# Hesablama Palatasında yeni təyinat

*Hesablama Palatasına yeni mətbuat katibi təyin olunub.*

"Unikal" xəbər verir ki, jurnalist Zeynəb Kazımova qurumun mətbuat katibi vəzifəsinə təyin edilib.

Qeyd edək ki, Zeynəb Kazımova Azərbaycanın yeganə fransızdilli "Le Carrefour" qəzetinin baş redaktorudur. O, bu təyinatadək Dövlət Gömrük Komitəsi Akademiyasının mətbuat xidmətinin rəhbəri kimi çalışıb.

Xatırladaq ki, Hesablama Palatasının əvvəlki mətbuat katibi Nailə Qaziyeva xidmətdə son yaş həddi ilə bağlı təqaüdə çıxıb.

# Əsabil Qasımov "çörək sınağı" üçün gözləmə mövqeyində...

## Sabiq deputat-biznesmen Rusiya-Ukrayna savaşından necə faydalanmaq istəyir?

***Rusiya-Ukrayna müharibəsinin ərzaq qıtlığı, bahalaşma ilə müşayiət olunacağı son günlər ən çox müzakirə olunan mәsələdir. Çörəyin qiymətinin bahalaşacağı ilə bağlı da məlumatlar dolaşır. İddia olunur ki, çörəyin qiyməti 1 manatadək yüksələ bilər.***

Yerli mətbuat yazır ki, bəzi çörək zavodlarına unun qiymətinin bahalaşacağı ilə bağlı xəbərdarlıqlar olunub. Bu məlumatlar əhalini də təşvişə salıb. Hətta bəziləri un tədarükünü öncədən görür və bunu artım olacağı ilə əlaqələndirirlər. Bəzi ekspertlərin fikrincə, insanların əvvəlcədən tədarük görməsi, piştaxtaların boşalmasına, qıtlığa, qiymət artımına səbəb olacaq.

Ölkəmizdə çörəyin qiymətinin bahalaşacağı gözlənilirmi? Bunun qarşısını necə almaq olar?

Yeri gəlmişkən, bu ilin yanvar ayında ölkəmizdə ərzaqlıq buğdanın, unun və çörəyin qiyməti qalxmışdı. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatında qeyd edilib ki, topdansatış məntəqələrində hazırda unun 50 kiloqramlıq kisələrdə topdansatış qiyməti 35,2-35,9 manat təşkil edir. Xidmət eyni zamanda un istehsalçılarının topdansatış mərkəzləri və məntəqələri, topdansatış qiymətləri, habelə iş vaxtı və əlaqə nömrələrinə dair siyahını yaymışdı.

Bəs çörəyin qiymətinin nəinki 1, hətta 2 manata yüksələ biləcəyi haqda iddialar nəyə xidmət edir? Bir çoxlarının fikrincə, bu zəruri ərzaq məhsulunun bahalaşma ehtimalı yüksək olsa da, qiymət artımının az qala 3-4 dəfə olacağı ağlabatan deyil və mümkündür ki, bəzi dairələrin maraqlarına hesablanıb. Söhbət ilk növbədə ölkəyə un və un məhsulları ixrac edən, eləcə də Azərbaycanın özündə onların istehsalı ilə məşğul olanlardan gedir. Bu sırada adı ön plana çıxanlardan biri isə sabiq deputat Əsabil Qasımovdur. Məlum olduğu kimi, o, ölkədə un istehsal edən ən böyük şirkətlərdən birinin sahibi - "Karat Holdinq" MMC-nin rəhbəridir.



Elə ona görə də ölkədə hər dəfə unun qiyməti bahalaşanda yada ilk düşənlərdən biri (bəlkə də birincisi!) Əsabil müəllim olur, sabiq deputatın şirkəti ictimai rəydə, mediada tənqid hədəfinə çevrilir.

Hazırda cəmiyyətdəki narahatlıqlar da əsasən "Karat Holdinq"ə yönəlib. Camaat haqlı olaraq təlaşlıdır: nəhəng biznes imperiyasına malik olan keçmiş millət vəkilinin şirkəti Rusiya-Ukrayna savaşından faydalanmaq niyyətinə düşə, unun qiymətini kəskin artırıb çörəyin də bahalaşmasına rəvac verə bilərmi?

Təəssüf ki, həmin şirkət indiyədək unun qiyməti ilə bağlı çoxsaylı spekulyasiyalara yol verdiyindən yuxarıdakı suala birmənalı olaraq "yox" cavabı vermək mümkünsüzdür. Yəni "Karat Holdinq"in unun qiymətini bahalaşdırması real görünür.

Keçmişə qayıdaq. 2015-ci ildə "Karmen" firması birdən-birə məhsullarının qiymətini bahalaşdırmışdı. Həmin vaxt manatın devalvasiyasından qabaq 18 manata olan 50 kiloluq un dolların yüksəlməsi ilə 27,50 manata qalxmışdı.

"Karmen" də deputat Əsabil Qasımova bağlı firmadır və "Karat Holdinq"in tərkibinə daxildir. Devalvasiyanın qaçılmaza çevrildiyini görüncə unun qiymətini bahalaşdıran adıçəkilən şirkət indi niyə belə bir bahalaşmanı dörd gözlə gözləməsin? Axı səbəb, daha doğrusu, bəhanə də hazırdır: "Hazırda dünyanın əsas taxıl istehsalçılarından ikisi - Rusiya ilə Ukrayna müharibə aparır, üstəlik, onlar Azərbaycanın da taxıl idxal etdiyi ölkələr arasında lider mövqelərə sahibdir. Belə vəziyyətdə unu, çörəyi bahalaşdırmayaq neyləyək?!"

Bir sözlə, Rusiya- Ukrayna müharibəsini əldə bayraq edib kimlərinsə azərbaycanlıları ÇÖRƏKLƏ SINAMAQ istəyində olması mümkündür. Elə unun, çörəyin qiyməti ətrafında son günlər hay-küylü iddiaların irəli sürülməsi, ictimai ajiotaj yaratmaq cəhdləri də həmin istəyin bir parçası kimi görünür. Belə anlaşılır ki, biriləri cəmiyyəti bu strateji ərzaq məhsullarının qiymətində kəskin bahalaşmaya hazırlayırlar. Hətta çörəyin qiymətinin 2 manat ola biləcəyindən dəm vurulur.

Məqsəd aydındır: belə fantastik rəqəm ortaya atılır ki, sonradan qiymət 80 - 90, lap elə 1 manat olsa əhali "Karat holdinq" kimi şirkətlərə, Əsabil Qasımov kimi biznesmenlərə qəzəb püskürmək yerinə oturub-durub şükür eləsin. Desin ki, buna da min şükür, yoxsa birdən çörəyin qiyməti, həqiqətən də, 2 manat olsa neyləyərdik?!

***Sənan Mirzə***

# Fərrux yüksəkliyində itkin düşmüş 62 hərbçimizin adları - SİYAHI

***Azərbaycan Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində itkin düşmüş Azərbaycan hərbçilərinin adlarını açıqlayıb.***

Dövlət Komissiyasından "Unikal"a bildirilib ki, Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən edilməsi və ekshumaasiyası işləri davam etdirilir.

Bu istiqamətdə aparılmış növbəti tədbirlər zamanı, 28 mart 2022-ci il tarixdə Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində bir neçə insana aid naməlum meyit qalıqları aşkarlanmışdır.

Adı çəkilən yüksəklik uğrunda Birinci Qarabağ müharibəsi zamanı ağır döyüşlərin getdiyini və Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini nəzərə alaraq, tapılan meyit qalıqlarının şəhid olmuş Azərbaycan hərbçilərinə aid olduğu ehtimal edilir. Tapılmış meyit qalıqları ərazidən götürülərək müvafiq ekspertizanın aparılması üçün aidiyyəti üzrə təhvil veriləcəkdir.

Məlumat üçün bildiririk ki, Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi uğrunda döyüşlərdə 62 nəfər (siyahı əlavə edilir) Azərbaycan hərbçisi itkin düşmüş şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyata alınmışdır. Eyni zamanda, Dövlət Komissiyasında toplanmış məlumatlara əsasən, Fərrux yüksəkliyinin yaxınlığında yerləşən, Xocalı rayonu, Pirlər kəndində 46 nəfər, Ağdam rayonu, Əliağalı kəndində 11 nəfər Azərbaycan hərbçisi itkin düşmüşdür.

Fərrux yüksəkliyində və ətrafında kütləvi məzar yerlərinin olması ehtimalı nəzərə alınaraq, mütəxəssislərdən ibarət heyət tərəfindən ərazidə axtarış və müvafiq ekshumasiya tədbirlərinin aparılması planlaşdırılır. Məsələ ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcəkdir.



**Birinci Qarabağ müharibəsi zamanı Fərrux yüksəkliyində itkin düşmüş Azərbaycan hərbçilərinin siyahısı**

**N Soyadı, adı və atasının adı Təvəllüdü İtkin düşdüyü tarix**

1 Abdullayev Əlibala Teyyub oğlu 27.02.1972 19.09.1992
2 Ağayev Arzu Nazir oğlu 16.12.1973 24.01.1993
3 Allahverdiyev Baba Müseyib oğlu 13.11.1971 28.10.1992
4 Allahverdiyev Əhməd Ənvər oğlu 30.04.1974 19.01.1993
5 Bağırov Baləddin Yusif oğlu 19.11.1972 18.09.1992
6 Basenşpiler Mixail Arifoviç 04.02.1963 19.09.1992
7 Baxışov Xəlil Salman oğlu 01.07.1965 28.09.1992
8 Bədirxanov Mehman Əhməd oğlu 27.02.1957 19.09.1992
9 Behbudov Əli Durmuşəli oğlu 01.06.1971 19.09.1992
10 Cəbrayılov İlham İbrahim oğlu 17.01.1973 19.09.1992
11 Cəfərov Mehman Əbdülrəhman o 28.01.1968 20.01.1993
12 Cəfərov Sənan Vəli oğlu 05.08.1972 25.01.1993
13 Dadaşov İlham Adil oğlu 19.06.1973 19.09.1992
14 Eminov Mehman Bəhram oğlu 01.03.1974 25.01.1993
15 Eyvazov Məsud Eynulla oğlu 08.12.1972 19.09.1992
16 Əhmədov Faiz Mahmud oğlu 15.10.1956 20.01.1993
17 Əliməmmədov Vahid Zəbişah oğ 07.11.1971 13.11.1992
18 Əliyev Hidayət Kamal oğlu 01.02.1973 27.10.1992
19 Əliyev İlqar Hidayət oğlu 01.12.1972 24.01.1993
20 Əmiraslanov Bəxtiyar Cahid oğlu 11.09.1971 29.10.1992
21 Əsgərov Bəxtiyar Ağabala oğlu 25.01.1973 19.09.1992
22 Əzizov Pərviz Bayramqulu oğlu 18.12.1969 28.10.1992
23 Fərzəliyev Vidadi Molut oğlu 01.06.1962 25.01.1993
24 Həbibov Elnur Paşa oğlu 21.12.1973 26.01.1993
25 Həsənov Eldəniz İlyas oğlu 17.12.1969 01.01.1993
26 Hüseynov Cəsarət Binnət oğlu 01.11.1973 27.10.1992
27 Hüseynov Hüseyn Əhməd oğlu 21.06.1935 19.01.1993
28 Hüseynov Vüqar Cavanşir oğlu 31.05.1973 19.09.1992
29 Hüseynov Vüqar Tahir oğlu 09.07.1973 25.01.1993
30 Hüseynov Xəqani Saleh oğlu 10.06.1970 28.10.1992
31 İbadov Maarif Məhiş oğlu 18.05.1971 29.09.1992
32 İbrahimov Kərəm Hümbət oğlu 05.05.1972 28.10.1992
33 İsmayılov Tahir İsa oğlu 19.01.1965 30.10.1992
34 İsrafilli Həsən Hüseyn oğlu 05.03.1958 18.06.1992
35 Kərimov Xaləddin Telman oğlu 09.11.1968 27.10.1992
36 Qəhrəmanov Vidadi İslam oğlu 30.03.1971 19.01.1993
37 Qəhrəmanov Qəhrəman Süleyman 05.03.1973 30.09.1992
38 Qubadov Vüqar Hicran oğlu 07.02.1973 19.09.1992
39 Qurbanov Natiq Mirzəli oğlu 16.02.1970 30.10.1992
40 Qurbanov Rasim Fikrət oğlu 19.12.1972 28.10.1992
41 Qurbanov Şaban Qulu oğlu 08.11.1972 28.10.1992
42 Məmmədov Elman Nurəddin oğlu 25.08.1970 11.02.1993
43 Məmmədov Faiz Kərim oğlu 14.09.1971 29.10.1992
44 Məmmədov İlqar Nuru oğlu 01.07.1961 26.01.1993
45 Məmmədov İlqar Şirzal oğlu 08.09.1971 19.09.1992
46 Məmmədov Mehman Tofiq oğlu 15.04.1972 19.09.1992
47 Məmmədov Pərviz Aşralı oğlu 04.05.1973 27.10.1992
48 Mənsimov Rüstəm İsrafil oğlu 01.07.1970 28.10.1992
49 Mirzəyev Araz Seyfəddin oğlu 28.07.1973 25.01.1993
50 Muxtarov Aydın Şaban oğlu 29.05.1974 24.01.1993
51 Namazov Pəhlivan Elman oğlu 29.12.1969 19.01.1993
52 Namazov Elçin Mahmud oğlu 13.09.1962 30.10.1992
53 Nyuneçkin Vladimir Anatolyeviç 03.02.1961 28.10.1992
54 Orucov Kamran Niyətulla oğlu 27.01.1974 19.09.1992
55 Ömərov Nizaməddin Məcid oğlu 09.10.1974 21.01.1993
56 Salmanov Sahib Salman oğlu 16.04.1973 28.10.1992
57 Səmədov Hümbət Əhəd oğlu 04.12.1966 13.06.1992
58 Svanidze Məhəmməd Fəzli oğlu 18.04.1974 22.01.1993
59 Şirinov Zahid Əsədulla oğlu 31.08.1971 20.09.1992
60 Tarverdipur Elşad Hüseyn oğlu 18.03.1971 28.10.1992
61 Təsəlliyev Aqil Böyükağa oğlu 02.02.1973 25.01.1993
62 Zeynalov Bədəl Babası oğlu 19.11.1973 25.01.1993

**6.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Fərrux dağında aşkarlanan kütləvi məzarlıq Başlıbel faciəsini xatırladır

## Faiq İsmayılov: "Cəsədlərin bu cür yüksəkliklərdə basdırılması məqsədli şəkildə aparılıb. Onlar cəsədləri daha çox nəzərə çarpmayan yerlərdə basdırırdılar ki, heç kəs xəbər tutmasın.



***Bu ilin mart ayının 29-da Azərbaycan Ordusunun hərbçiləri Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri apararkən insan skeletləri aşkar ediblər. Kənd ətrafında ayrı-ayrılıqda 3 yerdə aparılmış qazıntılar zamanı Birinci Qarabağ müharibəsi zamanı qətlə yetirilmiş azərbaycanlıların skeletləri tapılıb.***

Xocalı rayonunun Fərrux kəndində kütləvi məzarlığın tapılması mənfur qonşumuzun insanlıq əleyhinə törətdiyi daha bir cinayətin üstünü açdı. Sirr deyil ki, Ermənistanın xalqımıza qarşı əsrlər boyu davam etdirdiyi nifrət siyasəti nəticəsində zaman-zaman on minlərlə dinc insan etnik və dini mənsubiyyətinə görə kütləvi şəkildə, xüsusi amansızlıqla qətlə yetirilib. Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə aşkar olunan kütləvi məzarlıqlar bu cür halları bir daha sübuta yetirir və müharibə cinayətlərinin törədildiyini təsdiq edir. Xocalı rayonunun Fərrux kəndi ərazisində aşkarlanan insan qalıqlarının da Birinci Qarabağ müharibəsində şəhid olan şəxslərə aid olduğu ehtimal edilir. Birinci Qarabağ müharibəsi zamanı 4000-ə yaxın azərbaycanlı itkin düşüb. İtkin düşmüş şəxslər haqqında qarşı tərəfin bu günədək hər hansı məlumat verməməsi və azad edilmiş ərazilərdə aşkar olunan insan qalıqlarının bəzilərinin amansızcasına qətlə yetirilərək kütləvi məzarlıqlarda basdırıldığını deməyə əsas verir. Aşkar olunmuş kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı soyqırım siyasətini bir daha sübut edir. Bu baxımdan beynəlxalq ictimaiyyəti azərbaycanlılara qarşı qəsdən törədilmiş sülh və insanlıq əleyinə cinayətlərə, müharibə cinayətlərinə beynəlxalq hüquq normaları əsasında yanaşma və qətiyyətli mövqe nümayiş etdirməyən əsas verir. Artıq Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Fərrux kəndində insan qalıqlarının aşkarlanmasına münasibət bildirib. Qeyd edilir ki, Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən edilməsi və ekshumasiyası işləri davam etdirilir. Adı çəkilən yüksəklik uğrunda Birinci Qarabağ müharibəsi zamanı ağır döyüşlərin getdiyini və Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini nəzərə alaraq, tapılan meyit qalıqlarının şəhid olmuş Azərbaycan hərbçilərinə aid olduğu ehtimal edilir. Tapılmış meyit qalıqları ərazidən götürülərək müvafiq ekspertizanın aparılması üçün aidiyyəti üzrə təhvil veriləcəkdir.

Məlumat üçün bildiririk ki, Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi uğrunda döyüşlərdə 62 nəfər Azərbaycan hərbçisi itkin düşmüş şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyata alınıbdır.

Eyni zamanda, Dövlət Komissiyasında toplanmış məlumatlara əsasən, Fərrux yüksəkliyinin yaxınlığında yerləşən, Xocalı rayonu, Pirlər kəndində 46 nəfər, Ağdam rayonu, Əliağalı kəndində 11 nəfər Azərbaycan hərbçisi itkin düşüb.

Fərrux yüksəkliyində və ətrafında kütləvi məzar yerlərinin olması ehtimalı nəzərə alınaraq, mütəxəssislərdən ibarət heyət tərəfindən ərazidə axtarış və müvafiq ekshumasiya tədbirlərinin aparılması planlaşdırılır. Məsələ ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

"Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayilov deyir ki, bu ermənilərin törətdiyi birinci və sonuncu hadisə deyil: "Fərrux dağı mövzusu da növbəti faciələrimizdən biridir. Azərbaycan Ordusu Birinci Qarabağ müharibəsində Fərrux dağının zirvəsinə qədər qalxmamışdı. Tapılan qalıqlar arasında əsgərlərimizin də olması istisna deyil. İlkin analizlərdən sonra mütləq bütün suallara cavab tapacağıq. Birinci Qarabağ müharibəsində itkin düşən 5 minə yaxın soydaşımızın kiçik qisminin belə sağ qaldığına ümidi yoxdur. Onları kütləvi şəkildə öldürüb basdırıblar. Bu cür kütləvi məzarlıqlar Ermənistan ərazisində də ola bilər. Xocavənd rayonunun Qaradağlı kəndində əvvəllər mal-qaranı yemləmək üçün silos tipli quyular qazılırdı. Bəzi məlumatlara görə, həmin quyularda da insanlar basdırılıb. Bu baxımdan belə qənaətə gəlirəm ki, Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə ermənilər Fərrux ərazisində tam sərbəst şəkildə bu cür kütləvi məzarlıqlar yaradıblar. Orada əsgərlərlə bərabər mülki vətəndaşlarımızı da basdırıblar".

F. İsmayılov onu da deyir ki, ermənilərin azərbaycanlıları əlçatmaz yerlərdə basdırmaları heç də təsadüfi deyil: "Meyidlərin bu cür yüksəkliklərdə basdırılması məqsədli şəkildə aparılıb. Onlar cəsədləri daha çox nəzərə çarpmayan yerlərdə basdırırdılar ki, heç kəs xəbər tutmasın. Ona görə də beynəlxalq hüquq öz sözünü deməlidir".

Xatırladaq ki, 44 günlük müharibədən sonra Başlıbeldə də kütləvi məzarlıq aşkarlanmışdı.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# May ayından Varşava-Bakı aviareysləri açılacaq

***May ayından Varşava-Bakı arasında yenidən aviareyslər təşkil ediləcək.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri, Polşa Respublikasının xarici işlər naziri Zbiqnev Rau ilə birgə mətbuat konfransında deyib.

Nazir bildirib ki, Azərbaycan ilə Polşa arasında əlaqələrin genişləndirilməsi üçün potensial mövcuddur.

# Agentlik bu müəssisələri restoranı cərimələndi

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) pandemiya dövrünün tələblərinə, bu sahədə müvafiq qanunvericiliyin icrasına, həmçinin yeni növ koronavirusun (COVID-19) profilaktikasına dair Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin icrasına nəzarət məqsədilə ictimai iaşə obyektlərində reydləri davam etdirir.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, nəzarət tədbirləri çərçivəsində 2022-ci il martın 30-da ölkə üzrə 99 ictimai iaşə obyektində 150 monitorinq keçirilib. Monitorinqlər zamanı 1 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Pozuntular aşkar edilmiş ictimai iaşə müəssisələri aşağıdakılardır:

1. Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq pr., Füzuli küç., məhəllə 720 ünvanında yerləşən, hüquqi şəxs "Siti Keyterinq" QSC-yə məxsus "Cafe City" restoranı.

AQTA müfəttişləri tərəfindən respublika üzrə monitorinqlər davam etdirilir və qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcəkdir.

# Gömrükçülərimiz Türkiyədə sertifikatlar aldılar

***Azərbaycan gömrükçüləri konteynerlərdə axtarış sahəsində türkiyəli həmkarlarının təcrübəsini öyrənmək üçün İzmir şəhərində beşgünlük təlimdə iştirak ediblər.***

DGK-dən "Unikal"a verilən məlumata görə, "Konteynerlərdə təhlükəsiz və effektiv axtarış sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi" adlı həmin təlim Böyük Britaniyanın ölkəmizdəki səfirliyinin maliyyə dəstəyi ilə keçirilib.

İzmir limanında təşkil olunan təlimə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 10 əməkdaşı qatılıb.

Təlim prosesində Türkiyənin Ticarət Nazirliyi Gömrük Mühafizə İdarəsinin mütəxəssisləri öncə iştirakçıları xidməti fəaliyyət zamanı limanda təhlükəsiz iş mühitinin formalaşdırılması mövzusunda məlumatlandırıblar. Eyni zamanda, konteynerlərin növləri, xüsusi qaçaqmalçılıq üsulları və qaçaqmalçılıq zamanı istifadə olunan gizli saxlanc yerləri barədə məlumatlar verilib.

Bundan başqa, təlim zamanı limana daxil olmadan gəmi və gəmidəki konteynerlərə dair məlumatların əvvəlcədən toplanılması, risk analizi və riskin dərəcələri, mənşə ölkəsi, tranzit daşımalar üzrə və əməliyyat məlumatlarına istinadən müəyyən olunan risk meyarları, habelə yaranan riskə görə həyata keçirilən fiziki yoxlama və sənədli nəzarətə dair təqdimatlar keçirilib.

Azərbaycan gömrükçüləri İzmir bölgəsinin müxtəlif limanlarına da səfər edib, burada gömrük işinin təşkili, gömrük nəzarətinin tətbiqi və gömrük əməliyyatlarının idarə olunması proseslərini müşahidə ediblər.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.



# Vətən sevdalısının xatirə abidəsi

***Vətən müharibəsində haqq savaşımızda son nəfəsinə qədər döyüşüb şəhidlik zirvəsinə ucalan igidlərdən biri Tural Rövşən oğlu Hümmətovdur. O, 20 may 1998-ci ildə Lənkəran rayonu, Tatova kəndində dünyaya göz açmışdı.***



Xalqımızın qəhrəmanlıq tarixində öz yeri olan Tural müharibədən əvvəl Lənkəran şəhər Mədəniyyət Mərkəzində çalışırdı. Burada ona xatirə abidəsi qoyuldu. Mərasimdə bir dəqiqəlik sükutla şəhidin əziz xatirəsi yad olundu. Sonra çıxış edən Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov dedi:-Vətən yolunda şəhid olan Turalın adı heç vaxt dillərdən düşməz. Kompüter sahəsində bilgi və hazırlığı nəzərə alınaraq 2018-ci ildə Lənkəran şəhər Mədəniyyət Mərkəzinin büdcədənkənar Kompüter mərkəzində inzibatçı vəzifəsinə işə qəbul edilmişdi. İşinə məsuliyyətlə yanaşır, bu sahədə biliyini uşaq və gənclərə həvəslə öyrədirdi. Qəhrəman Vətən oğlu hərbi xidmət zamanı artilleriya bölməsində qulluq etmişdi. 2020-ci il sentyabrın əvvəllərində qısamüddətli xüsusi təlimlərə cəlb olunur. Sentyabrın 27-də Vətən müharibəsi başlayanda cəbhəyə yola düşür.

Tural topçu kimi əvvəlcə Ağdərə istiqamətindəki döyüşlərdə iştirak edib. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və bir çox kəndlərin işğaldan azad etməsində rəşadət göstərib. Noyabrın 7-də Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Mərasimdə şəhidin ailə üzvləri, döyüş yoldaşları və yaxın dostları Turalın keçdiyi şərəfli döyüş yolundan, göstərdiyi igidlik və şücaətdən, onunla bağlı keçmiş xatirələrdən söz açdılar. Tədbirin bədii hissəsində məktəblilərin ifasında vətənpərvərlik haqqında şerlər səsləndi. Axırda şəhidin büstü önünə gül çələngi qoyuldu və xatirə şəkilləri çəkildi.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Azadlıq günəşinin şəfəqləri

## (Aprel döyüşlərinin qəhrəmanları)

***Azərbaycanın göz oxşayan dilbər guşələri illərlə düşmən tapdağında əzilir, azərbaycanlıların ürəyi vətən həsrətindən üzülürdü. İllər illərə calandıqca Qarabağ həsrəti ürəyə daha ağır gəlirdi. Hər bir vətəndaş düşmən addımını öz ürəyində hiss edirdi. Axı bu acı ilə nə qədər yaşanılacaqdı? Vətən həsrəti ilə yaşayan kim, yaşlanan kim, həyata başlayan kim. Hər kəsi eyni acı, eyni həsrət, eyni amal birləşdirirdi. Qarabağın azadlığı...***

Qarabağdan didərgin salındığımız daha illərlə deyil on illərlə hesablanırdı. Bu on illərdə Azərbaycan ordusu kifayət qədər qüdrətə və gücə sahib olmuşdu. Daha 1990-cı illərdə pərakəndə mübarizə aparan dəstələr deyil bir yumruq kimi birləşən Azərbaycan ordusu var idi. Xalq orduya və ordunun başçısı Ali Baş Komandan İlham Əliyevə güvənirdi. Ən əsası da elə güvən idi. Güvəndən güc, gücdən zəfər doğar. Azərbaycan ordusu Azərbaycan xalqına ilk zəfər sevincini 2016 - cı ildə Aprel döyüşlərində yaşatdı.

1994-cü ildə "Atəşkəs rejimi" elan olunduqdan sonra işğal olunmuş torpaqlarımızın bir qarışını da azad etmək mümkün olmamışdı. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecəyə kimi. O gecə Azərbaycan ordusu nəinki düşməni, dünyanı lərzəyə gətirdi. Körpəlikdən nağıl yerinə Qarabağın işğal tarixini, "20 Yanvar" faciəsini, "Xocalı Soyqırımını" dinləyən vətən oğulları düşmənin növbəti dəfə "Atəşkəsi" pozma cəhdini əks-hücum əməliyyatı ilə cavablandırdı. Bu əməliyyat düşmənə çox ağır zərbələr vurdu. Cəbhə boyu ərazilərdə Azərbaycan ordusu irəliləməyə başladı. Strateji baxımdan böyük əhəmiyyət kəsb edən Cəbrayıl rayonunda yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan ordusunun nəzarətinə keçdi. Bu Ermənistan ordusu üçün böyük məğlubiyyətin başlanğıcı idi. Azərbaycan ordusu anbaan irəliləyir, azad olan ərazilərin miqyası genişlənirdi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də illərdən sonra azadlığa qovuşdu. Bu azadlıq neçə-neçə qəhrəmanın canı bahasına əldə olundu. Ən ağır döyüşlərin getdiyi yerlərdən biri də Talış kəndi idi. Talış kəndinin azad olunması ilə Talış yüksəkliyi də Azərbaycan ordusunun nəzarətinə keçdi. Bu da yaxınlıqda olan kəndlərə nəzarət etmək imkanı yaratdı. İllərdən sonra Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan (Madaqiz) kəndi istiqamətində yollar düşməndən azad olundu. 4 gündə illərlə düşmənin bərkitdiyi sədlər aşıldı. "Ohanyan səddi" açıldığı an artıq Ermənistan və havadarları qorxuya düşdülər. Yenidən "Atəşkəs" elan olunması üçün Ermənistan tərəfi yalvardı. Hər zaman Qarabağ məsələsinin sülh yolu ilə həllinə çalışan tərəf olduğumuz üçün "Atəşkəsin" bərpa olunmasına razı olduq. Ancaq düşmənin sadəcə rəng dəyişdiyini, xislətinin dəyişmədiyini yaxşı bilirdik. Tarixdə Aprel döyüşləri kimi, silinməz qəhrəmanlıq salnaməsi kimi iz qoyan dörd günlük müharibədə Azərbaycan ordusunun hərbçiləri Vüqar Nurəddin oğlu Yusifov, Raquf Cahangir oğlu Orucov, Murad Telman oğlu Mirzəyev, Sənan Tahir oğlu Axundov , Təbriz Tariyel oğlu Musazadə, Urfan Üzeyir oğlu Vəlizadə, Rasim Əbdül oğlu Məmmədov, Elnur Adil oğlu Əliyev, Samid Gülağa oğlu İmanov, İnqilab Çingiz oğlu Quliyev, Mühid Qurban oğlu Orucov, Vaqif Dilqəm oğlu Bayramov, Nəcməddin Akif oğlu Savalanov, Əbu Bəkir Vüqar oğlu İsmayılov, Mirzə Sərvər oğlu Novruzov, Rəşid Rövşən oğlu Mehdiyev, Ziya Niyazi oğlu Həsənov, Elvin Məmməd oğlu Namazov, Cavid Gülbala oğlu Dədəkişiyev, Elnur İsgəndər oğlu İsgəndərov, Sahil Həsrət oğlu Şirinov, Qabil İsa oğlu Orucəliyev, Dilradov, Müşviq Arif oğlu Orucov, Cabbarxan İlham oğlu Hacıağayev, Nurlan Cəmil oğlu Qasımov, Xaliq Həsən oğlu Əzizzadə, Tural Sabir oğlu Dadaşov, Emin İmran oğlu Bağırov, Kamran Faiq oğlu Şirəliyev, Əlizaman Fərrux oğlu İslamov, Ülvin Cəmaləddin oğlu Məmmədov, Şulan Bayram oğlu Bayramov, Fəxrəddin Seyfəddin oğlu Qurbanlı, Firdovsi Əliş oğlu Bağırzadə, Mahir Sabir oğlu Mirzəyev, Röyal İmran oğlu Nəsirov, Altun Fərman oğlu Dəmirli, Elşən Səlim oğlu Səmədov, Vüsal İlham oğlu Alıyev, Mikayıl Yaqub oğlu Vahabzadə, Mahir Qədir oğlu Quliyev, Nazim Nadir oğlu Zəkarayev, Əmiraslan Xəlil oğlu Xeyirbəyov, Rəşad Şakir oğlu Niftalıyev, Elvin Azadxan oğlu Mirzəyev, Əbdülməcid Nadirşah oğlu Axundov, Mahmud Azər oğlu İbrahimov, Sərxan



suz Məmmədağa oğlu Qarayev, Elimdar Səlimxan oğlu Səfərov, Orxan Kazım oğlu Hümbətov, Əlvan Qafar oğlu Hüseynov, Orxan Ələsgər oğlu Müstəcəbov, Məhəbbət Zaman oğlu Mirzəyev, Nurlan Rasim oğlu Abdullayev, Ravil Elman oğlu Novruzov, Rusif İbrahim oğlu Ağayev, Teymur Sabir oğlu Qasımov, Murad Vaqif oğlu Məmmədov, Bəxtiyar Rəfael oğlu Hüseynov, Toğrul Habil oğlu Fərəczadə, Şahin Yaşar oğlu Cavadzadə, Pəncəli Nurməmməd oğlu Teymurov, Tural Gülşad oğlu Qurbanov, Mirsalam Təvəkkül oğlu Cəfərov, Seymur Qulamhüseyn oğlu Baxışov, Babək Vəfadar oğlu Abidov, Təbriz Hamlet oğlu Əsgərov, Elvin Sədrəddin oğlu Qayıbov, Ruhin Əşrəf oğlu Qəhrəmanov, Nurlan Bayram oğlu Əsgərov, Rahim Qara oğlu Tağıyev, Nicat Bəhruz oğlu İsgəndərov, Səbuhi Rəfayıl oğlu Musayev, Adil Kamran oğlu Adilzadə, Rəvan İsmayıl oğlu Nurayev, Orxan Məhəmməd oğlu Əliyev, Orxan Həmidov Ənvər oğlu, Səyyar Quliyev Knyaz oğlu, Sarvan Natiq oğlu Mehrəliyev, Samir Ziyəddin oğlu Qaçayev, Fərahim Adışirin oğlu Novruzov, Nurəddin Etimad oğlu Mirzəyev, Sərxan Azər oğlu Bağırov, Hüseyn Zeynal oğlu Dəmirli, Ömər Məzahir oğlu Cəbrayılov, Vüqar Natiq oğlu Süleymanov, Teymur Mikayıl oğlu Qasımov, Rizvan Telman oğlu Muradov?

Oqtay oğlu Bayramov, Ayaz Ələkbər oğlu Hüseynov şəhid olublar. Şəhidlərdən ikisi Nəcməddin Akif oğlu Savalanov və Rahim Qara oğlu Tağıyev Aprel döyüşlərində ağır yaralanıb, aylar sonra şəhid olublar. Daha iki şəhidimiz Sənan Tahir oğlu Axundov və Rüstəm Oruc oğlu Əhmədov döyüşlər bitdikdən sonra azad olunan ərazilərdə bərkitmə işləri aparan zaman şəhid olublar. Hərbçilərlə yanaşı dinc sakinlər arasında da düşmənin açdığı atəşə tuş gəlib, şəhid olan vətəndaşlarımız olub.

Aprel döyüşlərində vətən torpağına qan ilə yazılan bir çox qəhrəmanlıqlara şahid olduq. İki dostun bərabər şəhid olması, iki qardaşın birinin nəşini digərinin çiyinlərində çıxarmasını və daha nələrə-nələrə... Ancaq Aprel döyüşlərində azadlıq yolu sona qədər gedilmədi. Tamamlanmamış Azadlıq yolunu Azərbaycan ordusu 2020-ci ilin 27 sentyabrında yenidən addımlamağa başladı. 44 gün ərzində Azərbaycan ordusu düşmən tapdağında qalan torpaqları işğaldan azad etdi. Bütün dünya Azərbaycan xalqının gücünə, qüdrətinə və qalibiyyətinə şahid oldu. Aprel döyüşlərinin neçə-neçə canlı şahidləri Vətən müharibəsində şəhadətə ucaldılar. Beləcə şəhid qanlı Qarabağa şəhid qanları ilə yol açıldı.

***Manya Səxavətqızı***

# Ağdamda 12 subartezian quyusunda təmir-bərpa işləri aparılıb

***Bəhramtəpə Hidroqovşağı ölkənin 6 rayonunu suvarma suyu ilə təmin edir.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, 1958-ci ildən istifadəyə verilən Bəhramtəpə Hidroqovşağı hər il olduğu kimi bu gün də əhatə etdiyi 6 rayonu suvarma suyu ilə təmin etmək üçün gücləndirilmiş iş rejimində çalışır. Hidroqovşağa Bəhrəmtəpə Hidroqovşağının İstismarı İdarəsi xidmət edir. İdarə İmişli, Saatlı, Sabirabad, Biləsuvar, Cəbrayıl və Cəlilabad rayonlarının 228525 ha əkin sahəsini suvarma suyu ilə təmin etmək üçün 182 km magistral kanallardan, 155 ədəd hidrotexniki qurğulardan, uzunluğu 760 metr olan dükkerdən, 75 ədəd hidrometrik postlardan və 2 ədəd baş suqəbuledicidən istifadə edir. Ötən il 49 ədəd hidrotexniki qurğu, 19 ədəd hidropost, 23 km beton üzlüklü kanalın yamaclıqları hissə-hissə şərti və cari təmir olunub. Bundan başqa 79 km-ə yaxın magistral kanal lildən təmizlənib ki, hazırda da bu istiqamətdə tədbirlər davam edir.

Ötən il Bəhrəmtəpə Hidroqovşağının İstismarı İdarəsi tərəfindən Köhnə Cənubi Muğan kanalında 2 ədəd səviyyə qaldırıcı qurğu əsaslı təmir olunub. Bundan əlavə olaraq birləşdirici qol kanalında əkin sahələrinin su ilə təminatının yaxşılaşdırmaq məqsədi ilə 1 ədəd səviyyə qaldırıcı qurğu tikilərək istifadəyə verilib. Hazırda Qovşaqda yenidənqurma işləri çərçivəsində təmir bərpa işləri davam etdirilir. Suvarma müddətində su qıtlığı yaranan zaman Azərbaycan Meliorasiya və Su təsərrüfatı ASC tərəfindən su ötürmə qabiliyyəti 5,1 m3/san olan üzən nasos qurulub. Həmin nasos stansiyası suyu Baş Muğan kanalına vurmaq qabiliyyətinə malikdir.

Qeyd edək ki, hazırda 2022-ci ildə yaz-tarla işlərinin görülməsi məqsədi ilə hazırlıq işləri aparılır. Görülən işlər nəticəsində 6 rayonda fəaliyyət göstərən fermerlərin suvarma suyu ilə təminatı yaxşılaşacaq.

Ağdamda işğaldan azad olunmuş ərazilərdə subartezian quyusu istifadəyə verilib, ümumilikdə 12 subartezian quyusunda təmir-bərpa işləri aparılıb.

Dilqəm Şərifov bildirib ki, Azərbaycan Meliorasiya Su Təsərrüfatı ASC-nin tabeliyində olan Ağdam Mexaniki Suvarma İdarəsi tərəfindən Ağdam rayonunun işğaldan azad edilən ərazilərində plana uyğun olaraq subartezian quyularında təmir-bərpa işləri davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə növbəti subartezian quyusunun təmir-bərpadan sonra açılışı olub.

Bildirilib ki, bu günə qədər 12 subartezian quyusunda təmir-bərpa işləri aparılıb. Hazırda bərpa edilən subartezian quyusu saatda 120 kubmetr suçıxartma qabiliyyətinə malikdir ki, bu da 40 hektara qədər əkin sahəsinin suvarılması deməkdir. Bundan başqa əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və kənd təsərrüfatının inkişafını şərtləndirmək məqsədi ilə yaxın zamanlarda işğaldan azad olunmuş ərazilərdə Xaçınçay və Ağdamkənd su anbarlarında təmir-bərpa işləri aparılacaq. Artıq bunu üçün layihə-smeta sənədləri də hazırlanıb.

Ağdam Mexaniki Suvarma İdarəsi tərəfindən torpaq kanalların lildən təmizlənməsi prosesi də daim diqqətdə saxlanılır. Kanalların təmizlənməsi nəticəsində su istifadəçilərinə verilən su sürətli və daha itkisiz çatdırılır. İdarə tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 2022-ci ilin əvvəlindən bu günə kimi 26 min 300 hektara yaxın sahədə suvarma işləri aparılıb. Bundan başqa müasir standartlara cavab verən subartezian quyularının 105-də Skada sistemi quraşdırılıb. Artıq Skada sisteminin quraşdırıldığı subartezian quyularına elektron sayğaclar da qoyulub.

Qeyd edək ki, Ağdam Mexaniki Suvarma İdarəsi rayonun 36 min hektardan artıq əkin sahəsinin suvarılmasını, eləcə də əhalinin içməli və təsərrüfat suyuna olan tələbatının ödənilməsini həyata keçirir. 31 min 560 hektar sahə subartezian quyuları, 4450 hektar sahə isə öz axımı və nasos stansiyaları vasitəsi ilə suvarılır. İdarənin balansında 986 ədəd subartezian quyusu, 4 nasos stansiyası, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalı, 236 hidrotexniki qurğu var.





***H.İsgəndərov***

# 26 mindən çox şagird imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi (DİM) aprelin 3-də növbəti imtahanlar keçirəcək.***



"Unikal" Dövlət İmtahan Mərkəzinə istinadən 2022-ci il aprelin 3-də keçiriləcək imtahanların siyahısını təqdim edir:

1. Əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı;

2. Müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı;

3. Qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı;

4. Mart ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin XI sinif şagirdləri üçün buraxılış imtahanı;

5. Eksternat qaydasında XI sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı;

6. Buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin XI sinif məzunları üçün buraxılış imtahanı keçiriləcək.

İmtahanlar Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Qazax, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Kürdəmir, Salyan, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də keçiriləcək.

Bu imtahanlarda iştirak edəcək şəxslər "İmtahana buraxılış vərəqəsi"ni DİM-in saytından çap edib götürə bilərlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası" da təqdim olunur. Burada iştirakçılara imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahanlar saat 11:00-da başlanır.

İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

İştirakçılar imtahana tibbi maska ilə gəlməli və onlardan düzgün (burun, ağız və çənə nahiyəsini tam örtməklə) istifadə etməlidirlər. Maskanı çıxarmaq qadağandır və bütün proses (buraxılış rejimi, imtahan müddəti, imtahan binasının tərk edilməsi) boyu istifadə olunmalıdır.

Abituriyentlər (şagirdlər) imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Sağlamlıq haqqında bəyannamə (buraxılış vərəqi ilə birlikdə çap edirsiniz və imzalayırsınız. İmtahana buraxılış vərəqəsi abituriyentin (şagirdin) özündə saxlanıldığı, sağlamlıq haqqında bəyannamə isə imtahan nəzarətçisinə təhvil verildiyi üçün hər iki sənəd ayrıca vərəqdə çap olunmalıdır);
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanda 26087 (Bakıda 8396, Naxçıvanda 1508, Gəncədə 1871, Şəmkirdə 529, Qazaxda 710, Sumqayıtda 1145, Abşeronda 991, Mingəçevirdə 1083, Şəkidə 1265, Bərdədə 1513, Göyçayda 615, Kürdəmirdə 622, Şirvanda 677, Sabirabadda 838, Salyanda 854, Lənkəranda 1420, Cəlilabadda 555, Xaçmazda 1495) nəfərin iştirakı nəzərdə tutulur.

İmtahanlarda 48 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, gözdən əlillər üçün fərdi nəzarətçilər təyin edilib.

İmtahanların idarə olunması üçün 109 ümumi imtahan rəhbəri, 318 imtahan rəhbəri, 2498 nəzarətçi-müəllim, 240 buraxılış rejimi əməkdaşı və 109 bina nümayəndəsi ayrılıb.



## "Daha heç kimin sözünə inanmırıq" - Zelenski

***"Rusiyanın Kiyev və Çerniqova hücumlarını azaltmaq qərarına baxmayaraq, hələ də işğalı davam edir".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Vladimir Zelenski deyib. O, Rusiya - Ukrayna nümayəndə heyətinin İstanbulda keçirdiyi görüşdən sonra Rusiya Müdafiə Nazirliyinin verdiyi sözlərini tutmadığını bildirib.

Ukrayna ərazisinin hər qarışı üçün mübarizəyə davam edəcəklərini bildirən Zelenski, "Bəli, davam edən danışıqlar prosesi var. Amma bunlar hələ də boş sözlərdir. Rusiya qoşunlarının Kiyev və Çerniqovdan çıxarılması ilə bağlı başqa sözlər də var. Guya bu istiqamətlərdə işğalçıların fəaliyyəti azalacaq. Biz bilirik ki, bu, diqqəti yayındırmaq deyil, geri çəkilməyin nəticələridir. Müdafiəçilərimizin işinin nəticəsi. Amma eyni zamanda biz görürük ki, rus qoşunları Donbassda yeni hücumlar üçün toplanır. Daha biz heç kimin sözünə inanmırıq Döyüş meydanında real vəziyyət var. Ən əsası, biz heç nədən vaz keçməyəcəyik və hər qarış torpağımız, xalqımızın hər qarışı uğrunda mübarizə aparacağıq", - deyə o bildirib.

***Gülayə Mecid***

## Taliban diplomatı ilk dəfə Rusiyada fəaliyyətə başladı

***"Əfqanıstanın yeni hökumətinin ilk diplomatı Rusiyada akkreditə olunub".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib.

"Keçən ay yeni səlahiyyətlilər tərəfindən göndərilən ilk əfqan diplomatı Moskvaya gəldi və nazirliyimizdə akkreditasiya aldı", - o, cümə axşamı Çinin Tunxi şəhərində Əfqanıstanın Qonşu Ölkələri Formatında Xarici İşlər Nazirlərinin Üçüncü Görüşünün iclasında bildirib.

Nazirin sözlərinə görə, "idarəçilik təcrübəsinin olmaması, maliyyə və iqtisadi məhdudiyyətlər, ABŞ və müttəfiqlərinin siyasi və diplomatik təzyiqlərinə baxmayaraq, Əfqanıstanın yeni administrasiyası, ümumilikdə, dövləti ayaqda saxlamağa nail olur".

***Ağarza Elçinoğlu***

## Tunis prezidenti parlamentin buraxıldığını elan etdi

***25 iyul 2021-ci ildə Tunis prezidenti Kays Səid fəaliyyətini dayandırdığı Nümayəndələr Palatasını buraxdığını elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Tunis Prezidenti sosial media hesabında video yayımlayıb.

Videoda danışan prezident Səid, "Tunis dövlətini və onun qurumlarını qorumaq üçün parlamenti buraxıram", - deyib.

Parlamentin onlayn iclasını qanunsuz olaraq xarakterizə edən Səid parlamentariləri "uğurlu dövlət çevrilişi" təşkil etməkdə ittiham edib.

# Delyagini danışdıran hansı "qüvvə" olub?

***"Rossiya-1" televiziyasının efirindən Azərbaycanın ünvanına təhdid səsləndirən və öz Telegram kanalında ölkəmizin neft sənayesinə taktiki nüvə zərbəsi endirilməsi barədə sorğu yerləşdirən Rusiya Dövlət Dumasının deputatı Mixail Delyagin rəsmi Bakının və xalqımızın sərt reaksiyası qarşılığında üzr istəmək məcburiyyətində qaldı.***

Onun belə sərsəm bəyanatı Rusiya cəmiyyətinin özündə də ciddi narazılıqla qarşılanıb. "Telegram"da Rusiyanın ən məşhur siyasi kanallarından olan "Kremlovskiy mamkoved" Mixail Delyaginin təcavüzkar bəyanatını Azərbaycan-Rusiya dostluğuna zərbə kimi qiymətləndirib.

"Qonşularla dostluğun əleyhinə çıxış edən və Azərbaycana zərbə endirmək tələbini qoyan Dövlət Dumasının İqtisadi siyasət komitəsinin sədrinin müavini Mixail Delyagin öz maraqları naminə Bakı ilə münasibətləri korlayır. Delyagin Rusiyadakı erməni diasporunun onun şəxsi varlanmasını təmin edə biləcəyi barədə qayğısını ölkənin milli maraqlarından üstün tutur. Halbuki, Azərbaycan Rusiyanın əsas müttəfiqlərindən biridir: LDXR-in tanınmasına bir gün qalmış, əməkdaşlıq barədə müqavilənin imzalanması üçün Əliyev Moskvaya gəldi, beynəlxalq təşkilatlarda Bakı Rusiyanın əleyhinə səs vermir və neytrallıq nümayiş etdirir",- "Kremlovskiy mamkoved" yazır.



"Telegram"ın daha bir məşhur səhifəsi olan "VÇK-OQPU" da Mixail Delyaginin sağlam məntiqlə izah edilə bilməyən təklifinin erməni diasporunun ianələrindən qaynaqlandığına diqqət çəkir:

"Aydındır ki, Delyagin məqsədyönlü şəkildə Rusiya ilə Bakının dostluğunun əleyhinə çıxır. Yəqin erməni tərəfinin xeyri üçün. Görünür, yaranmış vəziyyətdə Delyagin üçün milli mənafelöər yoxdur, yalnız RF-dəki erməni siyasi diasporunun doldurduğu şəxsi cibi var. Azərbaycana belə açıq-aşkar hücumu başqa cür izah etmək mümkün deyil. Bakı həmişə Kremlin və Putinin müttəfiqi olub. Xatırladaq ki, DXR-in və LXR-in tanınmasından bir gün əvvəl Əliyev Moskvaya gələrək, Putinlə müttəfiqlik müqaviləsi imzaladı. Bundan başqa, Bakı Ermənistandan fərqli olaraq, beynəlxalq təşkilatlarda Rusiyanın əleyhinə səs vermir və nəhəng xarici təzyiqə baxmayaraq neytral mövqeyini qoruyub saxlayır. Mənbələr onu da bildirirlər ki, Delyaginin Bakıya münasibətdə verdiyi bəyanatlar Prezident Administrasiyasında çox güclü gərginlik və narazılıq yaradıb ki, bu da təəccüblü deyil. Çünki Rusiya üçün yaranmış indiki vəziyyətdə ya böyük axmaqlıq üzündən, ya da ki, böyük pullar qarşılığında öz müttəfiqlərini nüvə silahı ilə hədələmək olar".

Sosial şəbəkələrdə yayımlanan belə şərhlər "Ədalətli Rusiya-həqiqət uğrunda" partiyasından olan Dövlət Dumasının deputatı Mixail Delyaginin "ədalət" və "həqiqət" anlayışlarını, xüsusilə də Moskvanın imicini necə delavasiyaya uğratdığının Rusiya cəmiyyətində yaxşı başa düşüldüyünü sübuta yetirir. Təsadüfi deyil ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun və Rusiya XİN-in də mövqeləri Delyaginin bəyanatlarının yolverilməz olduğunu diqqətə çatdırdı. Məhz Azərbaycanın sərt reaksiyası və rəsmi Moskvanın mövqeyi Mixail Delyagini üzr istəmək məcburiyyətində qoydu.

Bununla belə, Delyaginin üzrxahlığında bəyanatının daha çox emosiyalardan və tok-şou formatından qaynaqlandığını vurğulaması diqqətdən yayınmamalıdır. Çünki, Rusiyanın mərkəzi kanallarında yayımlanan xəbərlər proqramlarında və siyasi tok-şoularda vaxtaşırı anti-Azərbaycan xarakterli məlumatların yayılması, bəyanatların səsləndirilməsi demək olar ki, ənənəyə çevrilib. Hətta Azərbaycan tərəfinin dəfələrlə haqlı narazılığına və tələblərinə baxmayaraq, bu kanallarda qəribə bir inadcıllıqla "Dağlıq Qarabağ" ifadəsi səsləndirilir.

Bu baxımdan, Delyaginin bəyanatının erməni diasporundan aldığı ianələrdən qaynaqlandığı barədə Telegram-kanal səhifələrində yer alan fikirlər heç də təsadüfi deyil. Məhz erməni diasporunun ianələrindən qidalanan rusiyalı teleaparıcılar nəinki özləri açıq-aşkar ermənipərəs mövqedən çıxış edirlər, hətta studiyadakı əksər ekspertləri də belə münasibət sərgiləməyə məcbur etməyə çalışırlar. Bunun üçün dünən "Rossiya-1" kanalında "60 dəqiqə" (mosk. vaxtı ilə 17:30-da) verilişinin aparıcı Olqa Skabeyevanın daim Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ekspert, "Nasionlnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkoya təzyiq göstərmək cəhdini əks etdirən hisəssinə baxmaq kifayətdir.

İ. Korotçneko: "...Əlbəttə ki, yaxın ölkələrdən Qazaxıstan və Azərbaycanla əlaqələr çox vacibdir..."

O. Skabeyeva: "İqor Yuryeviç, Siz Ermənistanı unutdunuz".

İ. Korotçenko: "Əlbəttə ki, Ermənistan da. Ermənistan KTMT-nin və Avrasiya İqtisadi İttifaqının üzvüdür...Amma mən Qazaxıstanla Azərbaycanı sənaye-iqtisadi potensialları baxımından qeyd etdim..."

O. Skabeyeva: "Amma Ermənistanda isə, demək olar ki, hər gün "Z" hərfinin nümayişi ilə Rusiyaya dəstək mitinqləri keçirilir".

Tok-şounun aparıcılarının İqor Korotçenkoya təzyiq cəhdləri yalnız söz güləşdirməsində yox, onun Rsuiyanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin vacibliyi barədə mükalimələrini söylədiyi vaxt Olqa Skabeyeva və onun əri Yevgeni Popovun istehzalı simalarında da özünü əks etdirirdi.

Razılaşın ki, İqor Korotçenkonun çıxışına zorla Ermənistan çalarını qataraq, studiyanın qonaqlarının beyninə ermənilərin Rusiyaya "sədaqət"ini həkk etdirməyə çalışan aparıcıların obyektivliyinə və onların erməni diasporuna, sözsüz ki, müftəmüsəlləf yox, xidmət göstərmədiyinə inanmaq mümkün deyil. Məhz belə məqamlar Mixail Delyagin və bəzi digər ekspertlərin bu cür aparıcıların təkidi və təşəbbüsü ilə erməni diasporunun və erməniçilik ideoloqlarının xidmətinə cəlb olunduğunu düşünməyə əsas verir. Rusiya telekanallarında erməni mənşəli rusiyalı ekspertlərin və siyasətbazların meydan sulaması isə artıq sağalmaz bir mərəzə çevrilib. Təəssüflər olsun ki, ruslardan daha çox rus olduqlarını göstərməyə çalışan bu buqələmunların məkrli mahiyyətini Rusiyada hələ də dərk etməyənlərin sayı bunu başa düşənlərdən daha çoxdur.

Bu baxımdan, demək olar ki, Rusiyanın media məkanının ermənilərin və onların muzdlu qulbeçələrinin ixtiyarına verilməsi Moskvanın ən zəif tərəflərindən biri, daha doğrusu onun "Axilles dabanıdır. Çünki, Rusiya mediasında at oynadan bu qüvvələr rus xalqını bütün dünya ilə düşmənçilik həddinə çatdırıb. Buna görə də, Delyagin və onun kimilərinin belə təxribatçı bəyanatları təəccüblü görünmür(azvision).

***Sahil İsgəndərov,***
***politoloq***

# DÇ-2022-yə vəsiqə qazanan 29 ölkə - Siyahı

***DÇ-2022-nin 32 iştirakçısından artıq 29-u müəyyənləşib.***




Qol.az xəbər verir ki, bu günə kimi Qətər-2022-də oynamaq hüququnu aşağıda adları qeyd olunan komandalar qazanıblar.

Avropa zonası üzrə: İngiltərə, Belçika, Almaniya, Danimarka, İspaniya, Niderland, Polşa, Portuqaliya, Serbiya, Fransa, Xorvatiya, İsveçrə

Cənubi Amerika zonası: Argentina, Braziliya, Ekvador, Uruqvay

Afrika zonası: Qana, Mərakeş, Seneqal, Kamerun, Tunis

Asiya zonası: İran, Qətər (təşkilatçı ölkə), Səudiyyə Ərəbistanı, Cənubi Koreya, Yaponiya

Şimali Amerika zonası: Kanada, ABŞ, Meksika

Daha 3 iştirakçıdan ən sonuncusu iyunda müəyyənləşəcək. DÇ-2022-nin püşkatması aprelin 1-də keçiriləcək. Qətərin ev sahibliyi edəcəyi turnir 21 noyabr-18 dekabrda olacaq.

# Latviya yığmasının debütantı: "Azərbaycana qarşı daha yaxşı oynamaq istəyirdik"

***"Ümid edirəm ki, Küveyt və Azərbaycanla oyunlar Millətlər Liqasına daha yaxşı hazırlaşmağımıza köməklik göstərəcək".***



Apasport.az saytının "Ism.lv"yə istinadən məlumatına görə, bunu Latviya yığmasının qapıçısı Rixard Matreviç deyib.

Malta toplanışı çərçivəsində Azərbaycanla keçirilən yoldaşlıq görüşündə Latviya millisinin heyətində debüt edən 23 yaşlı qolkiper hisslərini bölüşüb. Komandasının 1:0 hesabı ilə qalib gəldiyi qarşılaşmanın ikinci hissəsində mübarizəyə qoşulan Matreviç bunun ona əlavə motivasiya verdiyini söyləyib: "Latviya millisinin forması ilə meydana çıxmaqdan xoşbəxt idim və həzz aldım. Tək düşüncəm Azərbaycan üzərində qələbəyə kömək etmək idi".

Qolkiper etiraf edib ki, Qarayevin 30-cu dəqiqədə qırmızı vərəqə alması işlərinə yarayıb: "Qapıçı üçün oyuna əvvəldən qoşulmaq daha asandır. Ancaq mən fasilədə hazırlaşaraq meydana girdim. Nə vaxtsa bu olmalı idi. Yaş meydançada çətin anlar yaşadığımı etiraf etməliyəm. Qələbə qazanmağımıza baxmayaraq, daha yaxşı oynamaq istəyirdik. Çünki Azərbaycan yığması matçın böyük hissəsini azlıqda keçirdi. Rəqibin 10 nəfərlə çıxış etməsi mənim də işimi asanlaşdırdı".

Qeyd edək ki, Latviya millimizlə oyundan əvvəl Küveytlə yoldaşlıq görüşündə heç-heçə (1:1) edib.

# Mamadu Kane "Neftçi"yə qayıdır

***"Olimpiakos"un futbolçusu Mamadu Kane yayda Azərbaycana qayıda bilər.***

Apasport.az saytının əldə etdiyi məlumata görə, "Neftçi" 25 yaşlı dayaq yarımmüdafiəçisini yenidən heyətinə cəlb etməkdə maraqlıdır.

Ötən ilin yayında Yunanıstan klubuna transfer edilən və cari mövsümün ilk yarısını icarə əsasında "Neftçi"də keçirən Kane "Olimpiakos"da çox qalmayacaq. Pirey təmsilçisində özünü doğrulda bilməyən Qvineya millisinin üzvü baş məşqçi Pedro Martinsin gələcək planlarına daxil deyil. Bu üzdən "Olimpiakos" yayda onunla yollarını ayırmağı planlaşdırır.

Kanenin gedişinə könülsüz olsa da, transferindən qazanc əldə edən "Neftçi" isə onun hazırkı klubundakı durumunu diqqətlə izləyir. Azərbaycan çempionu Mamadunu Bakıya qaytarmağın yollarını axtarır. Futbolçunun "Olimpiakos"la müqavilə müddətinin 2025-ci ilin yayına qədər olması "ağ-qaralar"ın işini bu baxımdan çətinə sala bilər. Bu üzdən rəhbərlik onu icarəyə götürmək, yoxsa birbaşa transfer etmək qərarını yunanıstanlılarla danışıqların gedişinə əsasən verəcək.




Qeyd edək ki, 2019-cu ilin yanvarından bu ilin əvvəlinə qədər "Neftçi"də çıxış edən Mamadu Kane cari mövsümün ilk yarısında Premyer Liqada 11 oyun keçirib, 1 qol vurub.

# Dünya çempionatına nə qədər bilet satılıb?

***Qətərdə keçiriləcək DÇ-2022 üçün bilet satışının ilk mərhələsində 804 186 bilet satılıb.***

Bu barədə FİFA məlumat yayıb. Qarşıdan gələn turnirə bilet almaq üçün ən böyük marağı Qətər, ABŞ, İngiltərə, Meksika, BƏƏ, Almaniya, Hindistan, Braziliya, Argentina və Səudiyyə Ərəbistanından olan azarkeşlər göstərib.

Qurum qeyd edib ki, dünya çempionatının açılış matçına və turnirin finalına tələbat daha çoxdur. Bilet satışının növbəti mərhələsi aprelin 5-də Bakı vaxtı ilə saat 13:00-da başlayacaq.

Qətərdə keçiriləcək dünya çempionatının qrup mərhələsinin oyunlarına biletlər əcnəbi azarkeşlər üçün 250-800 Qətər rialı (69-220 dollar), yerli azarkeşlər üçün 40 rial (11 dollar) qiymətindədir. Final matçına bilet yerli futbolsevərlərə 206 dollara başa gələcək. Əcnəbi azarkeşlər 604 dollardan 1,6 min dollara qədər ödəməli olacaqlar.

Qeyd edək ki, dünya çempionatının final mərhələsi noyabrın 21-dən dekabrın 18-dək Qətərdə keçiriləcək.

# PSV-də yeni baş məşqçi

***PSV Niderland millisinin sabiq hücumçusu Ruud van Nistelroyla müqavilə imzalayıb.***



"Unikal" xəbər verir ki, bu barədə klubun saytı məlumat yayıb. Müqaviləyə əsasən, 45 yaşlı mütəxəssis 2022/23 mövsümündən əsas komandanın baş məşqçisi olacaq. Sənəd 2025-ci ilin yayına qədər nəzərdə tutulub.

Qeyd edək ki, hazırda Nistelroy PSV-nin ikinci komandasının baş məşqçisi işləyir.

Əlavə edək ki, PSV-nin əsas komandası hazırda Niderland yüksək liqasında 2-ci yeri tutur.

# Yığmamız Antiqua və Barbudaya həsəd aparır



***FİFA milli komandaların reytinq cədvəlini martın son günündə açıqlayacaq.***

Apasport.az saytının məlumatına görə, artıq əksər yığmaların siyahıdakı mövqeyi bəllidir.

Azərbaycan millisinin də dünyadakı mövqeyini təxmin etmək mümkündür. Maltada baş tutan iki yoldaşlıq görüşündə meydan sahibləri və Latviyaya eyni - 0:1 hesabı ilə uduzan komandamız FİFA reytinqində də üzüaşağı yuvarlanacaq.

Ötən ay 1139 xalla planetin 121-cisi olan Azərbaycan millisinin Malta məğlubiyyətindən sonra 6 pillələk eniş edəcəyi məlum idi. Latviya yenilgisi daha iki addımlıq geriləmə vəd edir.

Yeni əmsalı 1127-yə qədər azalacaq komanda 129-cu sırada qərarlaşacaq. Millimizi arxada qoyan son iki yığma Komor adaları ilə Antiqua və Barbudadır. Hər iki komanda irəliləyiş sayəsində Azərbaycan futbolçularına yuxarıdan aşağı baxacaq. Maraq üçün qeyd edək ki, Komor adalarının əhalisi 1 milyona yaxındırsa, Antiqua və Barbudada bu rəqəm 100 mindən azdır. AFFA-nın hesabat apardığı və saydığı futbol adamlarının sayı isə 200 mini çoxdan keçib.

# Fərid Qayıbov boksçularla görüşdü

***Gənclər və idman naziri Fərid Qayıbov martın 30-da bu yaxınlarda Xorvatiyanın Poreç şəhərində keçirilmiş 22 yaşadək boksçular arasında Avropa çempionatında uğurla çıxış etmiş Azərbaycan idmançılarını qəbul edib.***



Komandamız Avropa çempionatında oğlanlar arasında ümumi hesabda 1 qızıl, 1 gümüş, 2 bürünc medalla 39 ölkə arasında 4-cü yeri tutub. Nicat Hüseynov (51 kq) Avropa çempionu olub. Ruslan Qədirov (54 kq) gümüş, Cəlal Qurbanov (63,5 kq) və Nəbi İsgəndərov (67 kq) isə bürünc medal qazanıblar.

Görüşdə boksçuları qitə çempionatında uğurlu çıxışları münasibətilə təbrik edən Fərid Qayıbov onlara növbəti yarışlarda uğurlar arzulayıb.

# "El Klasiko"da dünya rekordu



***Qadınlar arasında Çempionlar Liqasının 1/4 final mərhələsinin "Barselona" - "Real" oyunu tarixə düşüb.***

"Nou Kamp" stadionundakı "El Klasiko"nu 91 min 553 tamaşaçı izləyib. Bu say qadın futbolu tarixində yeni dünya rekordudur. Görüş "Barselona"nın 5:2 hesablı qələbəsi ilə yekunlaşıb. İlk oyunda da rəqibini 3:1 hesabı ilə məğlub edən kataloniyalılar yarımfinalda "Arsenal" - "Volfsburq" cütünün qalibi ilə qarşılaşacaq.

Qeyd edək ki, Çempionlar Liqasının final matçı mayın 21-də Turində keçiriləcək. "Barselona" turnirin son qalibidir.